**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALI AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ REGİONUNUN TARİXİ

| | |
|---|---|
| İxtisas: | 5503.02 - Vətən tarixi |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Bəhman Bəhram oğlu Kərimov** |

elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycanın tarixi elmi tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**İradə Səid qızı Bağırova**

tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

tarix elmləri doktoru, professor
**Xəqani Məmməd oğlu Məmmədov**

tarix elmləri doktoru, dosent
**Xəzər Allahverdi oğlu Hüseynov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının
Elmi katibi: tarix elmləri doktoru, dosent
________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
________________ **Mehman Sirac oğlu Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Vətən tarixinin ayrı-ayrı problemlərinin kompleks şəkildə yenidən araşdırılması zərurəti ortaya çıxmışdır. Çünki uzun bir tarixi dövr ərzində sinfi mübarizəyə əsaslanan sovet ideoloji konsepsiyası, hadisələrə obyektiv yanaşmağa mane olurdu. Sovet tarix elmində hakim olan ideoloji konsepsiyalar, hadisələrə sinfi yanaşma mövqeyindən çıxış etməklə, əsas faktları təhrif edilən mövzuların yaranmasına səbəb olmuşdur. Bu baxımdan, hələ də, dövrün ilkin tarixi mənbələrə əsasən diqqətlə öyrənilməsi vacib olan problemlər qalmaqdadı. Belə problemlərdən biri də Şimali Azərbaycanın cənub-şərq regionunu tarixidir. XX əsrin əvvəllərində regionunun ictimai-siyasi, sosial-iqtisadi vəziyyəti və mədəni quruculuğun bir problem kimi öyrənilməsi Azərbaycan tarixşünaslığı üçün həlli vacib olan məsələlərdən biridir. Beləliklə, milli tarixşünaslıqda, yeni konsepsiyalar əsasında diqqətdən kənarda qalan, zəif öyrənilmiş problemlərin kompleks şəkildə tədqiqi xüsusi aktuallıq kəsb edir.

Şimali Azərbaycanın cənub-şərq regionunun coğrafi mövqeyi, təbii-iqlim şəraiti, landşaft rəngarəngliyi baxımından müxtəlif təsərrüfat yönümlü, eyni həyat tərzi xüsusiyyətləri olan xalqların məskunlaşdığı ərazilərindən biridir. Uzun bir tarixi dövr ərzində bir yerdə yaşayan türklər və talışlar heç bir təsirə məruz qalmadan bərabər şəkildə öz əcdadlarının arxaik dilini, mədəniyyətini, adət-ənənələrini heyrətamiz şəkildə dövrümüzə qədər gətirib çatdırmışlar. Regionda mövcud olan bu iki aparıcı qüvvənin əsrlər boyu maddi və mənəvi mədəniyyətdə əldə etdiyi nailiyyətlər onları daha da yaxınlaşaraq, möhkəmlənmişdir. Bütün bunlar onların tarix boyu birgə yaşayışını təmin edən dominant dəyərlər və sarsılmaz birliyin təcəssümüdür. Bu birlik tarixin bütün dövrlərində olduğu kimi bu gün də inamla və uğurla davam etdirilir. Belə ki, I Qarabağ və 44 günlük Vətən müharibəsi dövründə regionun gənclərinin doğma Vətənimizin bütövlüyü uğrunda göstərdiyi qəhrəmanlıq bunun bariz nümunəsidir.

Tədqiqata cəlb edilmiş Şimali Azərbaycanın cənub-şərq regionu müasir Azərbaycan Respublikasının Lənkəran iqtisadi rayonuna daxil olan Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran

inzibati rayonlarının ərazisini əhatə edir. Eyni tarixi-etnoqrafik xüsusiyyətlərə malik bu coğrafi ərazi uzun bir dövr ərzində inzibati vahid kimi Şimali Azərbaycanın cənub və ya cənub-şərq regionu kimi adlandırılmışdır. Xanlıqlar dövründə Lənkəran xanlığı, xanlıqların ləğvindən sonra Rusiya imperiyasında həyata keçirildiyi inzibati ərazi bölgüsünə uyğun olaraq yaranan Lənkəran qəzası əvvəlcə Şamaxı sonra isə Bakı quberniyasının inzibati-ərazi vahidində olmuşdur.

Rusiya imperiyasında həyata keçirildiyi inzibati ərazi bölgüsünə uyğun olaraq tədqiq olunan dövrdə cənub-şərq regionu Səbidaş, Lənkəran, Ərkivan, Zuvand, Astara olmaqla, beş polis sahəsinə bölünmüşdür. Sahələr də öz növbəsində cəmiyyətlərdən və kəndlər bölünmüşdür[1]. Regionun mərkəzi olan Lənkəran şəhərini seçki yolu ilə seçilən özünüidarə rəhbəri, qəzanı isə qubernatorun təyin etdiyi qəza rəisi idarə edirdi.

Şimali Azərbaycanın digər əraziləri kimi cənub-şərq regionu Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra ictimai münasibətlərin nizama salınması istiqamətində qismən də olsa atılan mühüm addımlar əhalinin sayının artmasına öz təsirini göstərmişdir. Əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan regionda 1897-ci ildə 131.361 nəfər olduğu halda 1910-ci ildə 168.122, 1912-ci ildə 177.467 nəfərə çatmışdır[2]. Say etibarilə regionda azərbaycanlılardan sonra rus əhalisi aparıcı qüvvə hesab olunurdu. Dövrü mənbələrə əsasən "1844-cü ildə bütün Cənubi Qafqazda yaşayan 8618 nəfər rus əhalisinin 2634 nəfəri yalnız Lənkəran qəzasında yaşayırdı"[3]. Lakin

---

[1]Кистинев, Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда, Бакинской губернии // Тифлис: Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, – 1887, – том VII, – с. 544; Кавказский календарь на 1912 год / Под ред. Действ. Статск. Советн. А.Шаврова. LXVII год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, - 1911, – IV отд. с. 233.

[2] Кавказский календарь на 1912 год. – IV отд. с. 233.

[3] Колониальная политика Российского царизма в Азербайдане в 20-60 гг. XIX в.: Феодальные отношения и колониальный режим, 1843-1868 гг. / составила и подготовила к печатами Н.Г.Богданова. – Москва-Ленинград: Издательство Академии Наук ССР, – часть II, – 1937. – с. 273.

XX əsrin birinci on illiyində qəzada rus əhalisinin sayı 6 dəfə artaraq 14.317[4], 1915-ci ildə isə 20.316 nəfərə[5] çatmışdı.

Bu baxımdan cənub-şərq regionu uzun müddət ərzində çar Rusiyasının müstəmləkəçilik və köçürmə siyasətinə qarşı mübarizə və baş verən üsyanlar baxımından kifayət qədər mürəkkəb bir ərazi kimi də xarakterizə edilər. Çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində kəndlərdə hökm sürən səfalət, kəndlilərin aztorpaqlı və torpaqsız vəziyyəti, ağır mükəlləfiyyətlər, regionda kəndli çıxışlarının baş verməsinə gətirib çıxarmışdı.

İmperiyanın müstəmləkəçilik siyasəti ilə barışmayan əhali, yerli xalqın dilini və adət və ənənələrini bilmədiyi çar məmurlarına qarşı da inadlı mübarizə aparırmışdır. Yerli əhalinin hiddətlənməsindən qorxan çarizm regionda qismən yumşaq siyasət həyata keçirməklə, nahiyələrdə yerli məmurları rəhbər vəzifələrə təyin etməklə baş verən etirazların qarşısını almağa çalışırdı.

I Dünya müharibəsi ölkənin digər regionlarında olduğu kimi Lənkəran qəzasının sosial-iqtisadi həyatına ağır zərbə vurmuşdur. Regionun baş verən ziddiyyətlərin, sosial-iqtisadi vəziyyətinin və imperiyanın uğursuz siyasi idarəçilik sistemini öyrənilməsi xüsusi aktuallıq kəsp edir. Tədqiqat işinin aktuallığı həm də müharibə şəraitində hakimiyyətlə ictimaiyyət arasında münasibətlər kimi mühüm problemlərin öyrənilməsi ilə bağlıdır. Bu dövründə ərzaq böhranının qeyri-adi dərəcədə dərinləşməsi nəticəsində regionda ərzaq məhsulları çatışmazlığı və onların qiyməti xeyli bahalaşmışdı. Kənd təsərrüfatının dağılması, səfərbərliklər, mütəmadi rekvizisiyalar, bahalıq və möhtəkirlik qəzada kəndlilərin onsuz da ağır olan vəziyyətini daha da çətinləşdirirdi.

Dissertasiya işinin aktuallığını şərtləndirən əsas cəhətlərindən biri də XX əsrin əvvəllərində Lənkəran qəzasında kənd təsərrüfatının inkişafı məqsədilə yeni yolların salınması, ticarət, rabitə, kustar sənayenin inkişafına böyük təsir göstərən müxtəlif sənət sahələri araş-

---

[4] Очерк сельского и лесного хозяйства Ленкоранскаго уезда, Бакинской губернии / Г.У.З. и З. Бакинско-Дагестанское Управление Земледелия и Государственных Имуществ. – Баку: 1914. – с. 28.

[5] Кавказский календарь на 1916 г. / Под ред. Действ. Статск. Советн. Шаврова. Отделение статистика. – Тифлись: Типография Канцелярия Кавказского Наместника, – 1915. – с. 38-39.

dırılaraq tədqiqata cəlb edilməsidir. Qəzanın təbii-coğrafi şəraitindən irəli gələn amillər əhalisinin əsas gəlir mənbəyi əkinçiliyin, xüsusilə çəltikçilik və taxılçılıq təsərrüfat sahələrinin inkişafına müsbət təsir göstərmişdir.

Ümumilikdə, Şimali Azərbaycanın cənub-şərq regionunun tarixi indiyə qədər müxtəlif səpkidə tədqiqatçıların diqqət mərkəzində olsa da, aqrar təsərrüfatın bir çox sahələri, ictimai-siyasi, təhsil, mədəniyyət və səhiyyə tarixi kompleks şəkildə xüsusi tədqiqat obyekti olmamışdır. Problemin tədqiqat mövzusu kimi seçilməsi Vətən tarixşünaslığında mövcud olan boşluğu doldurmaq zərurətindən irəli gəlmişdir. Dissertasiya işində indiyə qədər tədqiqata cəlb edilməmiş çox saylı mənbə və ədəbiyyat əsasında XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionun siyasi, iqtisadi və mədəni quruculuq məsələlərinin öyrənilməsi problemin aktuallığını daha da artırır.

Tədqiqat işinin aktuallığını şərtləndirən əsas məsələlərdən biri də təhsil, mədəniyyət və səhiyyə sahəsində mövcud problemlərin olması idi. Bakı quberniya idarənin 1913-cü il mayın 16-da Qafqaz canişininə göndərdiyi məktubda, müəllif İranla sərhəddə yerləşən ən cənub şəhərdə imperiyanın təsirini gücləndirmək məqsədilə burada orta təhsil müəssisəsinin olmasının son dərəcə zəruriliyini [6] qeyd edilməsinə baxmayaraq, bu məsələ bir problem olaraq qalmışdır. Lakin XX əsrin əvvəllərinə regionun görkəmli ziyalıları tərəfindən yaradılan Behcət, Ziya, rus-türk, müsəlman qız məktəbləri və gimnaziyalar regionda təhsilin inkişafına müəyyən təsir göstərmişdir.

Dissertasiya işinin aktuallığını şərtləndirən digər amillərdən biri də 1917-1920-ci illərdə regionda baş verən ictimai-siyasi vəziyyətin araşdırılmasıdır. İnqilab regionda əhalisinin həyatında əsaslı heç bir dəyişiklik etmədi. Qəzada bir-birinə zidd olan müxtəlif siyasi qüvvələr üz-üzə dayanmışdı. İki ilə yaxın bir müddət ərzində yerli müsəlman əhali bolşevik-erməni quldur dəstələrinin və malakanların, rus millətçilərinin qırğınlara məruz qaldılar.

Regionda Azərbaycan ordusunun və yerli partizan dəstələrinin göstərdiyi rəşadət, qəhrəmanlığı sayəsində düşmən qüvvələri təslim

---

[6] Бакинский губернатор по губернскому по городским делам присутствию: Наместника его императорского величества на Кавказе (Баку: 1913, 16 мая) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 1, siyahı № 1, iş № 1260, vərəq – 17-18.

oldular. Bu böyük tarixi hadisəni qələmə alan müəllif yazırdı: Şənbə günü, avqustun 23-də general-mayor Səlimovun komandanlığı ilə Lənkərana gələn xilaskar ordu əhali tərəfindən yüksək səviyyədə qarşılandı. Ordumuzun gəlişi münasibətilə şəhər Azərbaycanın dövlət bayraqları ilə bəzədilmişdi. Tağların üzərində yazılmış: "Gənc ordumuzun simasında Vətənimizin üfüqündə, hər kəsin şad ruhunu işıqlandıran yeni müsəlman ayı çıxdı. Ya uca Allah, bu ayın nurunu dünyada artır və yay ki, o, sülhə, Vətənə sevgiyə, qüdrətə və şöhrətə aparan yolumuzu işıqlandırsın. Yaşasın Vətənin rifahı üçün çalışan qəhrəman əsgərlərimiz" [7] kimi yüksək vətənpərvərlik ruhunda yazılmış dəyərli faktların tədqiqata cəlb edilməsi dissertasiya işinin aktuallığını daha da artırır.

Tədqiqatın aktuallığını şərtləndirən amillərdən biri də, cənub-şərq regionunda müvəqqəti hökumət və Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəni quruculuq məsələlərinin öyrənilməsidir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən başlayaraq dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində həyata keçirilən tədbirlər özünün müsbət nəticələrini vermişdir.

Problemin öyrənilmə səviyyəsinə gəlincə, Şimali Azərbaycanın cənub-şərq regionunun bəzi tarixi məsələləri tədqiq olunsa da indiyə qədər kompleks şəklində tədqiqat obyekti olmamışdır. Bir çox ümümləşdirici əsərlərdə tədqiqatçılar regionda daha çox ictimai-iqtisadı münasibətləri xarakterizə etməklə kifayətlənmişlər.

Dissertasiyada irəli sürülən müddəaları mahiyyət etibarilə nəzərə alınaraq, tədqiqat işinin tarixşünaslığını dörd dövrə bölmək olar: - XIX-XX əsin əvvəlləri (1917-ci ilə qədər), Azərbaycan Xalq Cümhuriyyəti, sovet dövrü və müstəqillik illəri. Bu dövrdə yazılmış əsərlər metodoloji və tədqiqat metodlarına görə bir-birindən fərqlənir. Birinci və ikinci dövrlərə aid əsərlər müxtəlif metodoloji prinsiplərə söykənmiş və ayrı-ayrı mövqedən çıxış etmişlər. Üçüncü dövrün əsərləri isə marksizm-leninizm metodologiyasına əsaslanmışdır. Burada problemin öyrənilməsi prinsipləri nəzərə alınmış və yeri gəldikcə məsələlərə tənqidi yanaşılaraq, obyektiv təhlil

[7] Теймурбек. Ленкорань (от нашего специальн. корреспондента) // Азербайджан. – 1919, 3 сентября. – с. 6.

aparılmışdı. Müstəqillik illərində tədqiq olunan dövrdə Lənkəran qəzasının sosial-iqtisadi, etnoqrafik və 1918-1920-ci illərdə baş vermiş siyasi hadisələr müəyyən mənada araşdırılsa da, Şimali Azərbaycanın cənub-şərq regionun tarixi indiyə qədər kompleks şəkildə tədqiq edilməmişdi.

Tədqiqat işinin tarixşünaslığının ilkin mərhələsində müəlliflər imperiyanın aqrar tarixinə dair faktiki materialların toplanması və sistemləşdirilməsinin əsasını qoymuşlar. Bu əsərlərin xüsusi dəyəri ondan ibarətdir ki, onlar özləri kənd təsərrüfatının maarifləndirici tədbirlərin şahidi və ya təşkilatçısı olmuşlar. Bu baxımdan, dövrün tarixi əsərləri regionun kənd təsərrüfatının müxtəlif sahələri haqqında dolğun məlumatın əldə edilməsində xüsusi əhəmiyyətə malikdir.

Cənubi Qafqaz əyalətlərinin sosial-iqtisadi vəziyyəti ilə bağlı bir çox tarixi ədəbiyyatda Lənkəran qəzasının çar Rusiyasının hakimiyyəti dövrü təsərrüfat həyatı və məişət xüsusiyyətləri qısa şəkildə işıqlandırılmışdır. Tarixşünaslığının birinci mərhələsinə daxil olan əsərlərdə siyasi məsələlərə ümumilikdə toxunmamış, daha çox regionun iqtisadi potensiyalı və etnik tərkibi məsələlərini işıqlandırmışlar. Qəzanın sosial-iqtisadi münasibətləri ilə bağlı XIX-XX əsrin əvvəllərində yazılmış, V.Qeyvskinin[8], Fon Qrebnerin[9] Cənubi Qafqazda torpaq münasibətləri, S.Qulişambarovun Bakı quberniyasının zavod və fabrikləri[10], X.A.Vermişevin[11] dövlət kəndlilərinin torpaq məsələləri, N.N.Şavrovun[12] köçürülmə məsələləri, suvarma, torpaq

---

[8] Геевский В. Краткий очерк земледелия за Кавказом // Тифлис: Кавказского Общества сельского хозяйства. – 1887, вып. 9-10. – с. 145-158.

[9] Гребнер, А.В. Торговые дороги Закавказья / А.В. фон Гребнер. – Санкт-Петербург: тип. И. Гольдберга, – 1896. – 55 с.

[10] Обзор фабрик и заводов Бакинской губернии / Историко-статическое описание фабрично-заводской деятельности Бакинской губернии в связи с развитием в ней кустарных промыслов: С планом балаханской площади. – Сост.: Ст. Гулишамбаров. – Тифлис, – 1890. – 278 с.

[11] Вермишев Х.А. Земледелие у государственных крестьян Закавказского края / Х.А.Вермишев. – Тифлис: – 1888, – 564 с.

[12] Шавров, Н.Н. Остров Сара (строение, особенности, флора и фауна) // Записки Кавказского отдела Императорского Русского Географического общества, – книжка XXVI, выпуск 5, – Тифлис: Типография К.П.Козловского, - 1909. – 50 с.; Шавров, Н. Рыбное дело в Астаринском районе. Вестник Рыбопромышленности. Орган Императорского Российского

münasibətləri və balıqçılıq, V.V.Smirnovun[13] balıqçılıq, K.Xatisov[14] kustar sənayesi haqqında ümumləşdirilmiş əsərlərində regionla bağlı qismən də olsa verilmiş məlumatlar tədqiqata cəlb edilmişdir.

Rusiyanın hərb tarixçisi N.F.Dubrovinin əsərlərində [15] Qafqazda Rusiyanın hərb tarixi araşdırmaqla yanaşı region xalqlarının tarixi və etnoqrafiyası haqqında da məlumat vermişdir. Əsərlərinin birinci cildin ikinci kitabında Cənubi Qafqaz xalqlarının məişəti və adət-ənənələri, dinləri, təhsil məsələləri, inzibati idarəçilik sistemi təsvir edilmişdi. Əsərdə Lənkəran xanlığının çar Rusiyası tərəfindən işğalından sonra regionun sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti, eləcə də idarəçilik məsələlərini işıqlandırmışdır.

Regionun tarixinin araşdırarkən, imperiyanın işğal etdiyi əraziləri öyrənmək məqsədilə göndərdiyi mütəxəssislərdən biri olan P.F.Rissin məqaləsinə[16] də müraciət edilmişdi. Məqalə, birbaşa problemə aid olmasa da, regionun sosial-iqtisadi məsələlərə dair verilmiş qısa qeydlər dissertasiyaya cəlb edilmişdi.

Qəzasının iqtisadi vəziyyəti, sosial tərkibi, kənd təsərrüfatının və sənayenin müxtəlif sahələri haqqında B.Leqkobıtovun [17] ,

---

Общества Рыбоводства и рыболовства. – 1912, № 8-10, – XXVII год, – с. 207-241.; Шавров, Н.Н. Персидские побережье Каспийского моря, его производительность и торговля / Н.Н.Шавров. – Тифлис: тип. К.П.Козловскаго, – 1913. – 93 с.

[13] Смирнов. В.В. Рыбное хозяйство в водах Азербайджана за 1880-1920 г.г. / В.В.Смирнов. – Баку: Издание Аз. Ц. С. У. – 1925. – 86 с.

[14] Хатисов, К. Кустарные промыслы закавказского края / Отчеты и исследования по кустарной промышленности в Росии. – Санкт-Петербург: 1894, – том II, – с. 259-370.

[15] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе / Н.Ф.Дубровин. - Очерк Кавказа и народов его населяющих.- Том I. - Книга II. Закавказье. – Санкт-Петербург, – 1871, – 423 с.

[16] Рисса, П.Ф. О Талышинцах их образе жизни и языке // Записки Кавказчкого отдела императорского Русского Географического общества. Книжка III, изданная под редакциею Е.А.Вердеревского. - Тифлис: В типографии канцелярии наместник Кавказского, 1855. – с. 1-72.

[17] Легкобытов, В. Талышинское ханство // – СПб.: Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению. – в 4 часть часть III. – 1836. – с. 175-254.

D.A.Kistinevin [18] məqalələrində və V.M.Sidorov[19] əsərində dəyərli məlumatlar vardır. Bu əsərlər imperiyanın maraqları çərçivəsində birtərəfli yazılsa da regionun sosial-iqtisadi vəziyyətinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

Tədqiqat işində Şimali Azərbaycan ərazisində rusların yerləşdirilməsi, məskunlaşanlar üçün seçilmiş ərazilər, pravoslav dini binalarının tikintisi məsələlər ilə bağlı A.Yuniçkinin [20] əsərlərindən də istifadə edilmişdir.

Regionun tarixi-etnoqrafik cəhətdən öyrənilməsində 1902-ci ildə Lənkəran qəzasında səyahətdə olmuş A.M.Zavadskinin məqaləsində [21] ərazinin təbii coğrafi şəraitinə uyğun olaraq taxılçılıq, bağçılıq, bostançılıq və s., Lev Karpoviçin qəzasında çəltikçilik[22],

---

[18] Кистинев, Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда, Бакинской губернии // – Тифлис: Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, – 1887, – том VII, – с. 535-764; Кистинев, Д.А. Источники благосостояния крестьян Ленкоранскаго уезда // – Тифлис: Труды Кавказскаго общества сельскаго хозяйства, – 1889. № 1-2, – с. 55-82; Кистинев, Д.А. Источники благосостояния крестьян Ленкоранскаго уезда // Тифлис: Труды Кавказскаго общества сельскаго хозяйства, – 1889, № 3-4, – с. 146-161; Кистинев, Д.А. Источники благосостояния крестьян Ленкоранского уезда // – Тифлис: Труды Кавказскаго общества сельскаго хозяйства. – 1889, № 5-6, – с. 284-317; Кистенев, Д.А. Кустарная производительность и посторонные заработки крестян в Ленкоранском уезда // – Тифлис: Труды Императорского Кавказского общества сельского хозяйства, – год тридцать шестой, сентябрь-октябрь, – 1891, № 9-10, – с. 395-409.

[19] Сидоров, В.М. По России. Кавказ. Путевые заметки и впечатления. Практическия сведения для туриста / В.М.Сидоров. – С.-Петербург: Типография М. Акинфиева и И.Леонтьева, – 1897. – Том 2. – 683 с.

[20] Юницкий, А.И. История православных церквей и приходов Бакинской губернии (1815-1905 гг.) / А.И.Юницкий. – Баку: Бакинское братство законоучителей, 1906. – 193 с.; Юницкий А. Гнезда сектантства на Кавказе // Санкт-Петербург: Опубликовано: Христианское чтение, – 1895. № 1-2, – с. 142-164.

[21] Завадский, А.М. Поездка, а Талыш летом 1902 года // – Тифлис: Известия Кавказского Отела Императорского Русского Географического общества, т. XIX, 1907-1908. – 1909. – с. 27-39.

[22] Карпович, Лев. Культура риса в Ленкоранском уезде // – Тифлис: Кавказское Сельское Хозяйство. – 1900, № 316. – с. 53-56.

S.P.Zelinskinin bostançılıq təsərrüfatları[23] ilə bağlı məqalələrindən də istifadə edilmişdir. Burada qəzanın aparıcı təsərrüfat sahələri olan çəltikçilik və bostançılıq haqqında məlumat verilmişdir.

XX əsrin əvvəllərində regionun sosial-iqtisadi, təbii-coğrafi şəraiti və yaşayış məskənləri, qiymətli xammal mənbələri olan aqrar və meşə təsərrüfatı sahələri öyrənilməsində Muğan dəmir yolunun çəkilməsi ilə bağlı statistik[24] və Lənkəran qəzası kənd və meşə təsərrüfatına dair əsərləri[25] xüsusi rola malikdir.

Tədqiqat işini araşdırarkən Cənubu Qafqazın iqtisadi tarixinə həsr olunmuş S.L.Avalianinin Zaqafqaziyada kəndli məsələsi[26] və İ.L.Seqalın Zaqafqaziyada kəndli torpaq mülkiyyəti[27] ilə bağlı ümumiləşdirilmiş əsərlərinə də müraciət olunmuşdu. Əsərlərdə qəzasına dair məlumatlar verilməsə də dövrün sosial-iqtisadi vəziyyətinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

---

[23] Зелинский, С.П. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства. Кавказское сельское хозяйство. – 1898. № 208, – с. 43; Зелинский, С. Культура дыни в Ленкоранском уезде. Орган Императорского Кавказского Общества сельского хозяйства // – Кавказское Сельское хозяйство. – 1898. – 8 января, № 209, – с. 32-34; Зелинский, С. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства: Кавказское Сельское хозяйство. – 1898. – 15 января, № 210, – с. 52-53; Зелинский, С. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства. Кавказское Сельское хозяйство – 1898. – 13 февраля, № 214, – с. 113-114.

[24] Район Муганской железной дороги в экономическом отношении / Составлено под ред. П.П. Червинского. – Санкт-Петербург, Типография Первой Сиб. Трудовой Артели, 1913, – 526 с.

[25] Очерк сельского и лесного хозяйства Ленкоранскаго уезда, Бакинской губернии / Г.У.З. и З. Бакинско-Дагестанское Управление Земледелия и Государственных Имуществ. – Баку: 1914. – 231 с.

[26] Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье / Поселянская реформа и реформа сословно-поземельных отношений в мусульманских провиншях – в 4 томах том III – Одесса: Типография «Техник», – 1914. – 180 с.; Авалиани С.Л. Крестьянский вопрос в Закавказье / Упразднение временнообязанных и зависимых отношений крестьян и поселян в Закавказье. Хизанский вопрос. - Тифлис: издание. Тифлиского Государственного Унивеситет, – в 4 томах том IV – 1920. – 229 с.

[27] Сегаль, И.Л. Крестьянское землевладение в Закавказье / И.Л.Сегаль. – Тифлис: Типография К.П.Козловского. – 1912. – 154 с.

İmperiya ərazisində şəhər özünüidarənin və zemstvo idarələrinin fəaliyyəti ilə bağlı Q.M.Tumanovun əsərindən [28] istifadə edilmişdir. Müəllif Qafqazla bağlı ümumləşdirilmiş əsərdə Lənkəran şəhəri haqqında da qısa məlumat vermişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü tarixşünaslığına dair M.Ə.Rəsulzadə [29] və M.B.Məmmədzadənin [30] əsərlərində regionda baş verən siyasi hadisələr işıqlandırılmışdır. M.B.Məmmədzadənin 1935-ci ildə “Kurtuluş” jurnalında [31], 1920-1921-ci illərdə Lənkəranda bolşeviklərə qarşı baş verən üsyanının 15 illiyinə həsr olunmuş məqaləsində Camal çavuşun rəhbərliyi ilə regionda formalaşan yeli silahlı dəstələrin Azərbaycanın müstəqilliyi uğrunda inadlı mübarizəsi şərh edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan və müxtəlif tarixi hadisələrini özündə əks etdirən 1920-ci il ünvan-təqvimi[32] də tədqiqata cəlb edilmişdir.

Regionda baş verən mövcud problemlərin tədqiqində sovet tarixşünaslığının özünəməxsus rolu vardır. Sovet tarixçiləri sosial-iqtisadi hadisələrin tədqiqinə daha çox yer ayırsalar da inzibati idarəçilik, etno-demorqafik problemlərin öyrənilməsinə kifayət qədər diqqət yetirməmişdilər. Bu dövrün tarixi araşdırmalarının başqa bir fərqləndirici xüsusiyyətlərdən bir də regionda baş verən milli-azadlıq mübarizəsini inqilabi hərəkat kimi göstərməsi idi.

---

[28] Туманов, Г.М. Заметки о городском самоуправлении на Кавказе / Г. М. Туманов. – Тифлис: Типография Я.И.Либермана, 1902. – 213 с.; Туманов, Г.М. К введению на Кавказе земского самоуправления / материалов сборни кн. Г.М.Туманов. – Тифлис: Электропечная типографского Тов-ва «Гермес», 1905. – 80 с.

[29] Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə. – Bakı: Elm, – 1990. – 116 s.; Rəsulzadə, M.Ə. Əsərləri. / M.Ə.Rəsulzadə. – Bakı, Qanun nəşriyyatı, 2013. – 4 cilddən, IV cild – 456 s.

[30] Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı / M.B.Məmmədzadə. – Bakı: Nicat, – 1992. – 246 s.

[31] Mirzə Bala. Cemal Paşa (Lenkeran isyanının 15-nci yıl dönümü münasibətilə) // İstanbul: Kurtuluş, – 1935. № 10, – s. 275-278.

[32] Адрес-Календарь Азербайджанской Республики на 1920-й г. / Ответственный за выпуск: В.Бахманлы. – Баку: – 2011. Нагыл Еви, – 336 с.

Tədqiqat işini araşdırarkən dövrün ictimai-siyasi vəziyyəti ilə bağlı sosialist inqilabının rəhbəri V.İ.Leninin əsərlərinə[33] də müraciət edilmişdir. Bu əsərlərdə XX əsrin əvvəllərində Rusiya imperiyasının müstəmləkəçilik, köçürmə siyasətinin əsas mahiyyəti şərh edilmişdir.

Problemin öyrənilməsində V.A.Ryminin əsərinə də[34] müraciət edilmişdi. Əsərdə regionun tarixi icmalı, coğrafi mövqeyi, təsərrüfat həyatı və mədəniyyət sahələri qısa şəkildə işıqlandırılmışdır.

Tədqiqat işinin 1917-1918-ci illərdə regionda baş verən ictimai-siyasi vəziyyətlə bağlı Britaniya qoşunlarının general-mayoru L.Denstervilinin xatirələrinə də müraciət edilmişdir[35]. Əsərdə regionda siyasi vəziyyət, rus-malakan və erməni dəstələrinin yerli müsəlman əhliyə qarşı düşmənçilik münasibətləri şərh edilmişdir.

Sovet dövrün ideologiyasına uyğun 1917-1920-ci illərdə regionun siyasi tarixinin öyrənilməsində tədqiqatçı-alim N.Əlizadənin [36] xüsusi rolu vardır. N.Əlizadə dövrün ideologiyasına uyğun olaraq marksizm-leninizm metodoloji prinsiplərinə əsaslanaraq hadisələri birtərəfli qiymətləndirmişdir. Əsərdə, qəzada bolşeviklərin heç bir siyasi gücə malik olmadığı etiraf etməklə, bolşevik-erməni quldur dəstəsinin regionda törətdiyi qırğınların üzərindən sükutla keçən müəllif, heç bir fakta əsaslanmadan baş verən neqativ hadisələrin

---

[33] Ленин, В.И. Полное собрание сочинений. Декабрь 1911 - июль 1912 / – Институт Марксизма-Ленинизма. При ЦК КПСС. – Москва: Издательство Политической Литературы, – Том 21. – 1968, – 684 с.; Ленин, В.И. Полное собрание сочинений. Март - июнь 1921 / Институт Марксизма-Ленинизма. При ЦК КПСС. – Москва: Издательство Политической Литературы, – Том 43, – 1970, – 480 с.

[34] Рюмин, В.А. Талышский край (Ленкоранский уезд): (Краткий географической этнографической очерк) / В.А.Рюмин. – Ленкорань: – 1923, – 62 с.

[35] Генерал-майор Денстервиль. Британский Империализм в Баку и Персии 1917-1918 (воспоминания) / перевод с английского Б.Руденко. – Тифлис: Изд-во «Советский Кавказ», – 1925. – 281 с.

[36] Əlizadə, N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qləbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən / N.Əlizadə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1963. – 112 s.; Əlizadə, N. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən (Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi) / N.Əlizadə. – Bakı: Azərnəşr, – 1974. – 152 s.

əsas səbəbkar kimi, milli qüvvələri və yerli bolşevikləri günahlandırır.

Tədqiq olunan dövrlə bağlı professor H.Əzimovun [37] ümumiləşdirici əsərində 1917-1920-ci illərdə Azərbaycanın digər regionlarında olduğu kimi Lənkəran qəzasında baş verən ictimai siyasi hadisələr işıqlandırılmışdı. Müəllif əsərdə Lənkəran qəzasında əsasən eserlərin böyük üstünlüyə malik olduğunu qeyd edərək, bolşeviklərin heç bir üstünlüyə malik olmadığını bildirir. Əsərdə regionda bolşevizmin zəif təbliğ olunması ilə bağlı müəllifin fikirləri mövcud həqiqəti əks etdirmir. Əsas səbəb yerli müsəlman əhalinin dinsiz bolşeviklərin qəzada varlığını qəbul etmək istəməməsi idi.

Muğan və Lənkəranda 1918-1920-ci illərdə baş verən siyasi hadisələr ilə bağlı A.A.Privolnının [38] və A.A.Hüseynov V.M.Siniçının [39] əsərlərində tədqiq olunan problem sovet dövrü konsepsiyasına uyğun şəkildə bir tərəfli şərh edilmişdir.

Sovet dövründə XIX-XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfat və sənayenin müxtəlif sahələrinin öyrənilməsi, bu sahələrdə kapitalizmin inkişaf, bank kapitalının ölkənin sənaye həyatına nüfuz etməsi, istehsalın təmərküzləşməsi və s. öyrənilməsində M.H.Vəliyevin (Baharlı) [40], A.S.Sumbatzadənin[41], M.İsmayılovun[42], T.T.Vəliyevin [43], İ.M.Həsənovun [44], V.D.Moçalovun [45], inzibati

---

[37] Əzimov, H. Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər) / H.Əzimov. – Bakı: Elm, – 1971. – 188 s.

[38] Привольный, А.А. Над Муганью зарево Октября / А.А.Привольный. – Баку: Азернешр. – 1967. – 199 с.

[39] Гусейнов, А.А., Синицын, В.М. Сражающаяся Мугань / А.А.Гусейнов, В.М.Синицын. – Баку: Азернешр, - 1979. – 82 с.

[40] Vəliyev (Baharlı), Məhəmməd Həsən. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi orçek) / M.H.Vəliyev (Baharlı). – Bakı: “Azərbaycan” nəşriyyatı, – 1992. – 192 s.

[41] Сумбатзаде, А.С. Сельское хозяйство Азербайджана в XIX в. / А.С.Сумбатзаде. - Баку: Изд-во АН Азерб. ССР, – 1958. – 364 с.; Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX в. / А.С.Сумбатзаде. – Баку: Издательство Академии наук А.С.С.Р., – 1964. – 504 с.

[42] İsmayılov, M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı / M.İsmayılov. – Bakı: – 1960. – 240 s.

[43] Vəliyev, T.T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı / T.T.Vəliyev. – Bakı: Elm, – 1987, – 256 s.; Vəliyev, T.T. 1905-1907-ci illərdə Azərbaycan fəhlələrinin inqilabi mübarizəsi // – Bakı: Birinci rus inqilabı ərəfəsi

idarəçilik sistemi ilə bağlı A.Ş.Milmanın[46] əsərlərindən istifadə edilmişdi. Bu tədqiqat əsərlərdə azda olsa regionun sosial-iqtisadi, inzibati ibarəçiliyi ilə bağlı mühüm faktlar öz əksini tapmışdır.

Dissertasiya işində Şimali Azərbaycanda torpaq münasibətləri, sahibkar və dövlət kəndlərdə aqrar münasibətlər, su təsərrüfatı, kəndli üsyanları ilə bağlı İ.A.Talıbzadənin[47], T.Ə.Nəbiyevin[48] əsərlərindən də istifadə edilmişdir. Bu əsərlərdə regionun sosial-iqtisadi münasibətləri qısa şəkildə şərh edilsə də, problemin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

Lənkəran şəhərinin və regionun ictimai-iqtisadi və siyasi tarixinin bəzi məsələləri haqqında N.Cəfərli[49] və B.H.Hüseynbalaoğlu, M.M.Talışlının[50] əsərlərində müəyyən məlumatlar verilmişdir. N.Cəfərlinin əsərində XIX-XX əsrin əvvəllərində Lənkəran şəhərinin ictimai-iqtisadi və siyasi tarixinin bəzi məsələləri şərh edilmişdir. B.Hüseynbalaoğlu və M.Talışlının əsərində Lənkəran regionun qısa

---

və dövrünün Azərbaycan tarixi məsələləri (Birinci rus inqilabının 80 illiyi münasibətilə). Məqalələr məcmüəsi. – 1985. – s. 8-40.; Vəliyev, T.T. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda dəmir yolu çəkilişi tarixindən // – Bakı: Azərbaycan SSR EA-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, – 1984. № 2, – s. 46-52.

[44] Гасанов, И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века / И.М.Гасанов. – Баку: Издательство Академии Наук Азербайджанской ССР, – 236 с.

[45] Мочалоv, В.Д. Крестьянское хозяйство в Закавказье у концу XIX в. / В.Д.Мочалоv. – Москва: Издательство АН СССР, – 1958. – 492 с.

[46] Мильман, А.Ш. Политический строй Азербайджана в XIX-начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления) / А.Ш.Мильман. – Баку: Азернешр, – 1966. – 320 с.

[47] Talıbzadə, İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı / İ.A.Talıbzadə. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, – 1965. – 112 s; Talıbzadə, İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə / İ.A.Talıbzadə. – Bakı: Elm, – 1980, – 152 s.

[48] Nəbiyev, T.Ə. Azərbaycanda aqrar münasibətləri (dərs vəsaiti) / T.Ə.Nəbiyev. - Bakı: – 1970. – 70 s.

[49] Cəfərli, N. Lənkəran (tarixi oçerk) /N. Cəfərli. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1995. – 92 s.

[50] Hüseynbalaoğlu, B.H., Talışlı, M.M. Lənkəran / B.H.Hüseynbalaoğlu, M.M.Talışlı, – Bakı: Maarif nəşriyyatı, – 1990. – 512 s.

tarixi icmalı, etnoqrafiyası, təsərrüfat sahələri, təhsil və mədəniyyət şəbəkələri haqqında məlumatlar öz əksini tapmışdır.

Azərbaycan öz dövlət müstəqilliyinə bərpa etdikdən sonra, Vətən tarixinin, xüsusilə XIX-XX əsrlər dövrü milli konsepsiya əsasında obyektiv araşdırılması istiqamətində vacib addımlar atılmış və mühüm ciddi tədqiqatlar ortaya qoyulmuşdur.

Şimali Azərbaycanın cənub-şərq regionu tarixinin öyrənilməsində tarixçi-alim F.Əsədovun[51] da xüsusi rolu vardır. Onun əsərində regionun ictimai-siyasi vəziyyəti haqqında məlumatlar işıqlandırılmışdır.

Tədqiqat işində rus kəndlilərinin regionda yerləşdirilməsi məsələləri ilə bağlı F.E.Bağırovun [52] əsərlərindən də istifadə edilmişdir. Əsərlərdə rusların regionda yerləşdirilməsi, onların sosial-iqtisadi proseslərə təsiri məsələləri araşdırılmışdır.

Şimali Azərbaycanın cənub-şərq regionun tarixi ilə bağlı yazılmış dissertasiyalarda Lənkəran qəzasının tarixi müəyyən dərəcədə öyrənilmişdir. L.Q.Məcidova XIX-XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial-iqtisadi vəziyyəti, əhalisi və etnik tərkibi[53], V.Ş.Əliyeva Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin Lənkəran bölgəsində bərqərar edilməsi [54], Ş Ş.M.İbadovun dissertasiya işində isə etnoqrafik baxımından Lənkəran şəhərinin ənənəvi məişət mədəniyyəti [55] məsələləri araşdırmışdır.

Dissertasiya işində dövrün nəqliyyat tarixinin öyrənilməsində Q.Ə.Əliyevin əsərindən [56] də istifadə edilmişdi. Əsərdə Şimalı

---

51 Əsədov, F. Talış diyarının keçmişinə bir nəzər / F.Əsədov. – Bakı: 1993, – 43 s.

52 Багиров, Ф.Э. Переселенческая политика царизма в Азербайджане (1830-1914 гг.) / Ф.Э. Багиров. – Москва: Маросейка, – 2009. – 704 с.

53 Məcidova, L.Q. Lənkəran qəzasının sosial-iqtisadi vəziyyəti (XIX əsrin sonları - XX əsrin əvvəlləri): / tarix üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı: 2015. – 157 s.

54 Əliyeva, V.Ş. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin Lənkəran bölgəsində bərqərar edilməsi: / tarix üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı: 2011. – 153 s.

55 İbadov, Ş.M. Lənkəran şəhərinin ənənəvi məişəti / tarix üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2018. – 166 s.

56 Əliyev, Q.Ə. XIX-XX əsrin başlanğıcında Şimali Azərbayanda nəqliyyatın inkişafı (Dərs vəsaiti) / Q.Ə.Əliyev. – Bakı: Bakı Universitetinin nəşriyyatı, – 1995. – 115 s.

Azərbaycanın digər regionlarında olduğu kimi cənub-şərq hissəsində yollar şəbəkəsinin qurulması və bu istiqamətdə mövcud layihələr təhlil edilmişdi.

I Dünya müharibəsi dövründə Lənkəran qəzasında ictimai-siyasi vəziyyət haqqında M.C.Qasımlının ümumləşdirilmiş əsərində [57] verilmiş müəyyən məlumatlardan istifadə edilmişdir.

Tədqiq olunan dövrdə çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı baş verən üsyanlar və onların səbəbləri haqqında C.X.Hüseynovun əsərlərində [58] məlumat verilir. Müəllif əsərdə Lənkəran qəzasında baş verən üsyanlara da qısa şəkildə toxunaraq, onların baş vermə səbəblərini şərh etmişdir.

Tədqiqat işində qəzanın 1917-1920-ci il tarixini araşdırarkən A.C.İsgəndərovun [59], V.Ş.Abışovun [60] və Ə.Ə.Qardaşzadənin [61] əsərlərinə də müraciət edilmişdi. Bu əsərlərdə tədqiq olunan dövrdə Lənkəran qəzasında, bolşevik-daşnak quldur dəstələrinin törətdiyi qırğınlar, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə, idarəçilik məsələləri və ictimai-siyasi məsələlər işıqlandırılmışdır.

Dissertasiya işinin yazılmasında 1917-ci il fevral inqilabından sonra xalqımızın milli mənafeyinin qorunması məqsədilə müstəqil Milli Ordunun formalaşması, Azərbaycan Xalq Cümhuriyyəti

---

[57] Qasımlı M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər): (sənədlər, materiallar, xəritələr və şəkillər) / M.C.Qasımlı. – Bakı: "Adiloğlu" nəşriyyati, – 3 hissədə, III hissə. – 2004. – 532 s.

[58] Гусейнов Д.Х. Национально-освободительное движение в Азербайджане в начале XX в. (1900-1907 гг.) / Д.Х.Гусейнов. – Баку: – 2001. – с. 256.; Гусейнов, Д.Х Движение качагов в Азербайджане в 1900-1910 гг. Вторя книга / Д.Х.Гусейнов. – Баку: Элм, – 2004. – с. 256.

[59] İsgəndərov, A.C. 1918-ci il mart qırğınının tarixşünaslığı / A.C.İsgəndərov. – Bakı: Mütərcim, – 1997. – 184 s.; İsgəndərov, A.C. Azərbaycan həqiqətləri: 1917–1920 / A.C.İsgəndərov. – Bakı: Elm və təhsil, – 2012. – 228 s.; İsgəndərov, A. 1915-1920-ci illərdə Azərbaycanda türk və müsəlmanlara qarşı həyata keçirilən soyqırımlar // – Bakı: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. – 2008. – s. 75-92.; İsgəndərov, A. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) // – Bakı: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu.– 2008. – s. 39-56.

[60] Abışov, V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) / V.Ş.Abışov. – Bakı: Nurlan, – 2007. – 163 s.

[61] Qardaşzadə, Ə.Ə. Azərbaycanın cənubunda Cümhuriyyət yolunda mübarizə (1918-1920-ci illər) / Ə.Ə.Qardaşzadə.– Bakı: Maarif, – 1998. – 76 s.

dövründə ordusu quruculuğu, onun ölkənin ərazi bütövlüyü uğrunda mübarizəsi tarixi ilə bağlı professor M.Süleymanovun əsərlərindən[62] də istifadə edilmişdir.

1917-1920-ci illərdə Lənkəran və Muğan ərazisində ictimai-siyasi proseslər, ermənilərinin törədikləri qırğınlar haqqında, aqrar məsələlər, Cümhuriyyəti dövründə milli-mədəni inkişaf haqqında K.N.İsmayılovun [63] və N.Mustafanın əsərlərində [64] məlumat verilmişdir.

Şimali Azərbaycanın cənub-şərq regionunda 1918-ci ilin yanvar - 1919-cu ilin avqustunda baş vermiş hadisələrin şahidi və hadisələrin bilavasitə iştirakçısı olan Sərhəd mühafizəsi korpusunun 29-cu briqadasının kapitanı V.A.Dobrıninin şəxsi təəssüratlarını əks etdirən

---

[62] Süleymanov, M. Azərbaycan ordusu (1918-1920) / M. Süleymanov. – Bakı: Hərbi Nəşriyyat, 1998. – 488 s.; Süleymanov, M. Qafqaz İslam Ordusunun digər fəaliyyətləri və missiyasının sona çatması // – Bakı: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. – 2008. – s. 357-392.; Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi / M.Süleymanov. – I cild. – Tehran: Firuzan, 2014. – 760 s.; Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi / M.Süleymanov. – II cild. – Bakı: Maarif, 2014. – 728 s.; Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu // – Bakı: Strateji Təhlil, – 2018. Say 1-2 (23-24), – s. 331-151.

[63] İsmayılov, K.N. Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi, mədəni həyatında gənclərin iştirakı // – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun əsərləri, – 2008. №25, – s.78-88.; İsmayılov, K.N. 1917-1920-ci illərdə Lənkəran-Muğan bölgəsində ictimaisiyasi proseslər // – Bakı: Tarix və Gerçəklik, – 2013. – s.64-82.; İsmayılov, K.N. Azərbaycanda sovet hakimiyyətinin ilk illərində Qırmızı Ordunun kütləvi zorakılıq və özbaşınalıqları // – Bakı: Hərbi bilik jurnalı, – 2016. №5(143), – s.11-26.; İsmayılov, K.N. 1918-ci ildə Lənkəran bölgəsində erməni silahlı birləşmələrinin cinayətləri Azərbaycan xalqına qarşı soyqırım siyasətinin tərkib hissəsi kimi // XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq konfransın materialları, – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, xüsusi buraxılış, – 2017. – 64, 65, 66-cı cildlər, – s. 83-94.; İsmayılov, K.N. Azərbaycan Xalq Cümhuriyyəti və milli-mədəni inkişaf // – Ankara: Bizim külliye dergisi, – 2018. №77, – s. 74-86.; Исмаилов, К.Н., Аграрные отношения и земельный вопрос в Азербайджанской Демократической Республике (1918— 1920 гг.) // -Москва: Вопросы истории, – 2018. №9, – с. 80- 91.

[64] Mustafa, N. Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920) / N.Mustafa. – Bakı: ULU, – 2018. – 268 s.

xatirə əsəri birtərəfli olsa da, tədqiq olunan dövrdə Muğan və Lənkəranda baş verən hadisələri işıqlandırılmışdır[65].

Tədqiqatçı A.P.Adıgözəlovanın əsəridə [66] verilmiş, Şimali Azərbaycanda 1917-ci il fevral inqilabından sonra ictimai siyasi vəziyyət ilə bağlı məsələlər də tədqiqata cəlb edilmişdir. Əsərdə Şimali Azərbaycanın digər əraziləri ilə yanaşı cənub-şərq regionunda başverən ictimai-siyasi vəziyyət şərh edilmişdi.

Dissertasiya işində əhalinin miqrasiya məsələləri, onların dinamikası və yerləşməsi, etno-demoqrafik problemi ilə bağlı professor K.Şükürovun[67], X.Y.Verdiyevanın[68], tədqiqatçı-alim N.V.Eyvazovanın[69] əsələrindən istifadə edilmişdir.

Tədqiq olunan dövrdə regionda təhsil və səhiyyə sahələrin inkişafında da nəzərəçarpacaq uğurlar əldə etmişlər. Regionun təhsil tarixinin araşdırılmasında T.İ.Axundovun [70], H.Əhmədovun [71],

---

[65]Добрынин, В.А. Оборона Мугани / В.А.Добрынин. – Нальчик: Издательство М. и В. Котляровых, – 2015, – 368 с.

[66] Adıgözəlov, A. Fevral inqilabından sonra Şimali Azərbaycanda idarəçilik sistemi / A.Adıgözəlov. – Bakı: – 2017. – s. 200.

[67]Şükürov, K. Azərbaycan əhalisi haqqında ədəbiyyat. Biblioqrafik göstərici. – Bakı: Azərbaycan Dövlət Kitab palatası, 1997. – 368 s.; Şükürov, K. Türk xalqları XVI-XX yüzillikdə. Say dinamikası (çar Rusiyası və Sovet İttifaqı üzrə). - Bakı: 1997. – 54 s.; Şükürov, K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). – Bakı: Elm, 2004. – 974 s.; Шукюров, К. Миграция населения между Россией и Ираном в XIX-XX веков (Политико-правовые вапросы) // – Швеция: Кавказ & Глобализация. – 2009. том 3, Выпуск 2-3, – с. 210-219.

[68] Вердиева, Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX - начале XX вв.) / Х.Ю.Вердиева. – Баку: Ecoprint, – 2016. – с. 420.

[69] Эйвазова, Н.В. Миграционные процессы в северном Азербайджане в XIX – начале XX вв.: / доктора философии по истории дис. Автореферат. / – Баку: 2016. – 32 с.; Эйвазова, Н.В. О внутренних и внешних аспектах миграций русского православного населения в Северный Азербайджан во второй половине XIX - начале XX века // Москва: Современная научная мысль. Научный журнал НИИ Истории, Экономики и Права. – 2016. № 2, – с. 27-32.

[70] Axundov, T.İ. Axundzadə Mirzə İsmayıl Qasir 210 / T.İ.Axundzadə. – Bakı: Şərq-Qərb nəşriyyat evi, – 2015. – 504 s.

[71] Əhmədov, H.M. Seçilmiş pedaqoji əsərləri / H.M.Əhmədov – Beş cildlik, I – Bakı: Elm, – 2000. – 450 s.; Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi /

N.Tahirzadə [72] və M.Mərdanovun [73], səhiyyə tarixinin araşdırılmasında Z.S.Eminovanın [74] ümumləşdirici əsərlərindən istifadə edilmişdi. Bu əsərlərdə regionun təhsil və səhiyyə tarixi qısa şəkildə şərh edilmiş, regionun görkəmli maarifçiləri haqqında məlumat verilmişdir.

Dövrün tarixini araşdırarkən Lənkəranın ictimai-iqtisadi və siyasi vəziyyəti ilə bağlı İ.S.Axundzadənin əsərində[75] də müəyyən faktlar öz əksini tapmışdır. Xatirə janırında yayılmış bu əsərin Lənkəran qəzası tarixinin öyrənilməsində özünəməxsus yeri vardır.

Regionun tarixi-etnoqrafik cəhətdən öyrənilməsində görkəmli alim, professor Q.Cavadovun böyük xidmətləri vardır. Müəllifin "Talışlar" monoqrafiyasında[76] regionun maddi və mənəvi mədəniyyəti geniş şəkildə araşdırılmışdır.

Tədqiqat işinə cəlb edilmiş əsərlərdən də göründüyü kimi, Vətən tarixşünaslığının bir hissəsi olan Şimali Azərbaycanın cənub-şərq regionunun tarixinə dair materiallar azlıq təşkil edir. Tədqiqata cəlb edilmiş ayrı-ayrı əsərlərdə regionun tarixinə bu və ya digər dərəcədə toxunulsa da, problemin kompleks şəkildə tədqiqat obyekti olmamışdır. Beləliklə, problemə dair yeni mənbələr, dövri ədəbiyyatlar elmi dövriyyədə cəlb etməklə "XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionunun tarixi" tədqiq edilmişdir.

Tədqiq olunan problemdən irəli gələn məsələləri öyrənmək məqsədilə arxiv sənədləri və dövri mənbələr də daxil olmaqla xeyli

---

H.M.Əhmədov – Bakı, Maarif, – 2000. – 364 c.; Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi / H.M.Əhmədov. – Bakı: ABU, – 2006. – 580 s.

[72] Tahirzadə, N. Xalq üçün döyülmüş ürək // Bakı: Azərbaycan məktəbi, – 1977. №3, – 72-73.; Tahirzadə, N.A. Azərbaycan təhsil tarixi oçerkləri və ilk ali təhsillilərimiz / N.A.Tahirzadə. – Bakı: "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2015. – 480 s.

[73] Mərdanov, M. Azərbaycan təhsil tarixi / M.Mərdanov. – Bakı: Təhsil, – I cild. – 2011. – 296 s.

[74] Eminova, Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi / Z.S.Eminova. – Bakı: Təbib, – 2015. – 147 s.

[75] Axundzadə, İ. Azərbaycan incisi (Mil-Muğan, Şirvan və Qarabağ) / İ.Axundzadə. – Bakı: Elm, – 1992. – 256 s.; Axundzadə, İ.S. Qəlbim hər zaman Lənkərandadır / İ.S.Axundzadə. – Bakı: AFPoliqrAF, – 2019. – 364 s.

[76] Cavadov, Q. Talışlar (tarixi-etnoqrafik tədqiqat) / Q Cavadov. – Bakı: Elm, – 2004. – 614 s.

sayda faktiki materiallar elmi dövriyyəyə cəlb edilmişdi. Bu materialları şərti olaraq beş qrupa bölmək olar: qanunvericilik aktları; məktublar və imperiya dəftərxana materialları; statistik mənbələr; dövri nəşrlər; xatirə mənbələri. Müəyyən edilmiş bu materiallar elmi dövriyyəyə daxil edilməklə, mövzunun bir çox aspektlərini daha dolğun tədqiq edilmişdi.

Mənbələrin ikinci qrupuna dövlət və zemstvo qurumlarının kargüzarlıq materialları daxildir. Tədqiqat işində istifadə edilmiş kargüzarlıq materiallarının tarixi mənbə kimi dəyəri olduqca böyükdür. Kargüzarlıq sənədləri arasında Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) Qafqaz canişininin dəftərxanası (fond 1), Qafqazda əkinçilik nazirliyinin (fond 13), Qafqazda su müfəttişinin dəftərxanası (fond 21), Qafqazda mülki işlər üzrə baş idarə rəisinin dəftərxanası (fond 22), Bakı quberniyası vergi idarəsi (fond 43), Bakı qubernatorunun dəftərxanası (fond 45), Bakı quberniyasının şəhər işləri üzrə idarəsi (fond 50), Bakı quberniyasının məskunlaşma işləri üzrə idarəsi (fond 51), Lənkəran qəzası polis idarəsi (fond 81), Şərqi Zaqafqaziya sularında balıq vətəgələri idarəsi (fond 106), Cənubi Xəzərdə Lianozovun varislərinə aid vətəgələr idarəsi (fond 107), Bakı-Dağıstan xalq məktəblərinin rəhbərliyi (fond 309), Müharibədən zərər çəkmiş şəxslərə Bakı quberniyası yardım komitəsi (fond 334) və digər mənbələrdən istifadə edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA) Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin Maarif Nazirliyi (fond № 51), Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Bakı şəhər və onun rayonlarının xalq məktəbləri inspektoru (fond № 52), Lənkəran və Cavad Qəzaları üzrə xalq məktəbləri müfəttişliyinin (fond 53), Xalq ərzaq komissarlığının (fond 61), AXC daxili işlər nazirliyin dəftərxanasının (fond 894) Azərbaycan Xalq Cümhuriyyəti Hökumət Hərbi Nazirliyinin Baş qərargahının Baş İdarəsi (fond № 2898) və s. fondlarında saxlanılan sənədləri tədqiqata cəlb edilmişdi. Arxivlərdə mühafizə edilən dövlət, zemstvo məktəbləri, digər təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı rəsmi yazışmalar xüsusi elmi maraq doğurur.

Dissertasiya işi araşdırılarkən problemlə bağlı Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda [inventar №526/15;

inventar №329/7; inventar №448/7; inventar №230/54; inventar №329/6] saxlanılan materiallar da tədqiqata cəlb edilmişdir.

Bundan əlavə, tədqiqat işində nəşr edilmiş sənədlər toplusundan, xatirələrdən, dövri mətbuat materiallarından istifadə edilmişdir

Qanunvericilik aktlarına gəldikdə, tədqiqat işinin araşdırılmasında Rusiya İmperiyasının Qanunlar məcəlləsindən [77], Qafqaz tarixinə aid qiymətli sənədlər toplusu olan Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində[78] regionun tarixinə dair müxtəlif məlumatlardan istifadə edilmişdir.

Dissertasiya işini araşdırarkən regionun tarixi ilə bağlı Seyid Əli Kazım bəy oğlunun "Cavahirnamei-Lənkəran"[79] əsəri də tədqiqata cəlb edilmişdir.

Regionun sosial-iqtisadi, siyasi, mədəni həyatının bütün sahələri haqqında statistik materiallar "Qafqaz təqvimi" [80], Bakı quberniyası-

---

[77] Полное собрание законов Российской империи (ПСЗ). Собрание (1825-1881) // О преобразовании управления Кавказского и Закавказского края. Законы 45259. – Том 42 (1867): – Часть 2: Законы (44895-45355), – 476 с. Полное собрание законов Российской империи (ПСЗ). Собрание (1881-1913): О преобразовании уездной полиции в губерниях Закавказья. Законы 5188 // – Том 8 (1888): Законы (4933 - 5685). 641 с.; Полное собрание законов Российской империи. Собрание третей. Том XXIX. – 1909. Отделение I: Част 1: От № 31330-32882, №32266, И Дополиения // Санктпетербург, – 1912, – 1006 с.

[78] Акты Кавказской Археографической Комиссии: / Под редакцией А.П. Берже. – том X, документ 143, – Тифлис: Типография Главного Управления Наместника Кавказского – 1885. – 938 с.

[79] Kazım bəy oğlu, Səyid Əli. Cavahirnamei-Lənkəran / Səyid Əli Kazım bəy oğlu. – Bakı: Örnək, – 2000. – 45 s.

[80] Кавказский календарь на 1869 год / Под редакциею надворного светника Н.Зейдлица. – Тифлис: Канцелярия Кавказского Наместника, 1868, – 670 с.; Кавказский календарь, на 1874 год. отд., II. / Под редакциею надворного светника Н.Зейдлица. – Тифлис: Канцелярия Кавказского Наместника, 1873, – 523 с.; Кавказский календарь на 1879 г., / Под ред. Действ. Статск. Советн. Шаврова. Под редакциею надворного светника Н.Зейдлица. – Изданный Главным Управлением Наместника Кавказскаго. – Тифлись: – 1878, 521 с.; Кавказский календарь на 1911 год / Издан по распоряжению Наместника его императорского величества на Кавказе канцелярией наместниеа по программе Закавказского Статистического Комитета. LXVI год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1910, – 752 с.; Кавказский календарь на 1912 год / Под ред. Действ. Статск. Советн.

nın müxtəlif illərdə nəşr olunmuş icmal xarakterli məcmuələrindən[81], A.M.Kuzminskinin hesabatından[82] da istifadə edilmişdir. Bu məcmuələrində imperiyanın tabeliyində olan Qafqazda çar müstəmləkə

---

А.Шаврова. LXVII год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1911, – 878 с.; Кавказский календарь на 1913 год / Под ред. А.А.Эльзенгера, Н.П.Стельмашука LXVIII год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1912, – 1160 с.; Кавказский календарь на 1914 год / Под ред. А.А.Эльзенгера, Н.П.Стельмащука. LXIX год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1913, 977 с.; Кавказский календарь на 1915 год / Под ред. Под ред. А.А.Эльзенгера, Н.П.Стельмашука LX год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1914, – 1222 с.; Кавказский календарь на 1916 г. / Под ред. Действ. Статск. Советн. Шаврова. Отделение статистика. – Тифлись: Типография Канцелярия Кавказского Наместника, – 1915, – 1013 с.; Кавказский календарь на 1917 год / Под ред. Н.П.Стельмащука. LXXII год. – Тифлис: Типография Канцелярия Кавказского Наместника, – 1916, – 1231 с.

[81] Обзор Бакинской губернии за 1890 год: Приложение к всеподданнейшему отчету / – Баку: Типография губернскаго правлении. – Баку: 1891. – 78 с.; Обзор Бакинской губернии за 1897 год: приложение к всеподданнейшему отчету / – Баку: Типография Губернского правления, – 1898. – 89 с.; Обзор Бакинской губернии за 1903 год. Приложение ко всеподданнейшему отчету / Баку: Типография губернскаго правлении, – 1904. – 140 с.; Обзор Бакинской губернии за 1904 г. Приложение ко всеподданнейшему отчету / – Баку: Типография губернскаго правлении, – 1905. – 328 с.; Обзор Бакинской губернии за 1909 год. Приложение к всеподданнейшему отчету Бакинского губернатора / – Баку: Типография губернского правления, – 1910. – 122 с.; Обзор Бакинской губернии за 1910 г. Приложение ко всеподданнейшему отчету / – Баку: Типография губернскаго правлении, – 1911. – 140 с.; Обзор Бакинской губернии за 1911 год. Приложение к всеподданнейшему отчету Бакинского губернатора / – Баку: Типография губернского правления, - 1912. – 105 с.; Обзор Бакинской губернии за 1913 год. Приложение к всеподданнейшему отчету Бакинского губернатора / – Баку: Типография губернского правления, – 1915. – 122 с.; Обзор Бакинской губернии за 1915 г. Приложение ко всеподданнейшему отчету / – Баку: Типография губернскаго правлении - 1916. – 112 с.

[82]Кузминский, А.М. Всеподданнейший отчета о произведенной в 1905 году, по высочайшему повелению, сенатором Кузминским ревизии города Баку и Бакинской губернии / А.М.Кузминский. – СПб., – 190?, – 686 с.; Кузминский, А.М. Всеподданнейшая записка, содержащая главнейшие выводы отчета о произведенной в 1905 году, по высочайшему повелению, сенатором Кузминским ревизии города Баку и Бакинской губернии / А.М.Кузминский. – СПб.: – Сенат. тип.,1913. – 70 с.

sisteminin çatışmazlığı obyektiv olaraq göstərilmişdir. Müəlliflər bu çatışmazlığı əsasən yerlərdə məmurların özbaşınalığı ilə izah edərək, burada əsas günahkar olan mütləq monarxiya-avtokratiyasının sosial-siyasi mahiyyətini gizlətməyə çalışırdılar. Lakin bu əsərlərdə hadisələrə birtərəfli yanaşılsa da, XX əsrin əvvəllərində regionun ictimai-siyasi və iqtisadi vəziyyətinin öyrənilməsində xüsusi rola malikdir.

Dissertasiya işində XIX əsrin sonu – XX əsrin əvvəllərində "Qafqaz kənd təsərrüfatı"[83] qəzetinin müvafiq nömrələrində Lənkəran qəzasının sosial-iqtisadi vəziyyəti ilə bağlı məqalələri də tədqiqata cəlb edilmişdi.

Mövzunun tədqiqində Azərbaycan və rusdilli dövri nəşrlərin materialları xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat işinin yazılması zamanı qəzada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət haqqında "Kaspi", "Azerbayjan", "Baku", "Açıq söz" və s. qəzet məqalələrdən də geniş istifadə edilmişdir. Burada Məmməd Əmin Rəsulzadə və Teymur bəy Bayraməlibəyovun məqalələri xüsusi əhəmiyyətə malikdir.

M.Ə.Rəsulzadənin 1917-ci il mart ayında Lənkəran səfəri ilə bağlı "Acıq söz" qəzetinin 24, 29, 31 mart və 4 aprel tarixli nömrələ-

---

[83] Бежанов М. Культура риса в Ленкоранском уезде // – Тифлис: Кавказское сельское хозяйство. – 1898, 19 февраля. – с. 128.; Вет. врача Кудрявцева. Об организации ветеринарного надзора на границе Персии с Бакинскою губернию. Орган Императорского Кавказского Общества сельского хозяйства // – Тифлис: Кавказское сельское хозяйство. – 1898, 23 апреля. – № 224. – с. 39-43.; Водный закон и земство на Кавказе // Кавказское хозяйство. – 1914, № 14. – с. 1-4.; Зелинский, С.П. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства. Кавказское сельское хозяйство. – 1898. 1 января, № 208, – с. 43.; Зелинский, С. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства – Кавказское Сельское хозяйство. – 1898. – 8 января, № 209, – с. 32-34.; Зелинский, С. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства: Кавказское Сельское хозяйство. – 1898. 15 января, № 210, – с. 52-53.; Зелинский, С. Культура дыни в Ленкоранском уезде // – Тифлис: Орган Императорского Кавказского Общества сельского хозяйства. Кавказское Сельское хозяйство – 1898. 13 февраля, № 214, – с. 113-114.

rində nəşr olunan “Dörd gün xəlq içində” adlı məqalələrində[84] regionunda ictimai-siyasi vəziyyət işıqlandırılmışdır.

Lənkəran qəzasının 1917-1920-ci il tarixinin öyrənilməsində Azərbaycan Respublikası Milli Arxiv İdarəsi tərəfindən nəşr edilmiş Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlamentin stenoqrafik hesabatlarından[85], Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu (1918-1920)[86], AXC təhsil siyasəti ilə bağlı sənədlər toplusundan[87] da istifadə edilmişdir. Bu əsərlərdə tədqiq olunan dövrdə sosial-iqtisadi, ictimai-siyasi və mədəni quruculuq siyasətinə dair dəyərli materiallar toplanmışdır.

Dissertasiya işində, qiymətli mənbə kimi, 1917-1920-ci illərdə baş verən ictimai-siyasi hadisələrin şahidi, Azərbaycanın Milli Dövlətçilik, ərazi bütövlüyü uğrunda aparılan mübarizənin rəhbərlərindən biri olmuş Cümhuriyyətinin parlament üzvü Hacı Mirzə Səlim Axund Axundzadənin “Azərbaycan torpağına türbət demişəm. Xatirat”[88] və Lənkəran qəzası İcraiyyə komitəsinin sədri Soltan Məhəmməd bəy Qulubəylinin “Təlatümlü illər “Xatirat” adlı əsərlərindən[89] də istifadə edilmişdi. Bu əsərlərdə XX əsrin əvvəllərində milli dövlətçiliyə aparan yolda cərəyan edən ictimai-siyasi proseslər, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və bu dövrdə baş verən siyası hadisələr şərh edilmişdi.

---

[84] Rəsulzadə, M.Ə. Dörd gün xəlq içində // Acıq söz. – 1917, 24 mart. - s. 3.; Rəsulzadə, M.Ə. Dörd gün xəlq içində // Acıq söz. – 1917, 29 mart. – s. 3.; Rəsulzadə, M.Ə. Dörd gün xəlq içində // Acıq söz. – 1917, 31 mart. – s. 4.; Rəsulzadə, M.Ə. Dörd gün xəlq içində // Acıq söz. – 1917, 4 aprel. – s. 4.

[85] Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920): Parlament (Stenoqrafik hesabat) / Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Baş Arxiv İdarəsi. – I cild, - Bakı: Azərbaycan, – 1998. – 976 s; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920): Parlament (Stenoqrafik hesabat II cild) / Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Baş Arxiv İdarəsi. – Bakı: Azərbaycan, – 1998. – 992 s.

[86] Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы) / – Баку: Азербайджан, – 1998. – 440 с.

[87] Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920): Təhsil siyasəti (sənədlər toplusu) / Məsul redaktor A.Ə.Paşayev. - Bakı: Elm və təhsil, – 2018. – 468 s.

[88] Axundzadə, Hacı Mirzə Səlim Axund. Azərbaycan torpağına türbət demişəm / Hacı Mirzə Səlim Axund Axundzadə. Xatirat. – Bakı: – 2016. – 288 s.

[89] Qulubəyli Soltan Məhəmməd bəy. Təlatümlü illər “Xatirat” / S.M.b.Qulubəyli. – Bakı: – 2022. – 276 s.

Tədqiqat işində regionun ictimai-iqtisadi, siyasi və təhsil tarixinin öyrənilməsində E.Cavadovanın əməyi sayəsində nəşr edilən, görkəmli tədqiqatçı-diyarşünas T.Bayraməlibəyovun Əlyazmalar İnstitutunun fondunda saxlanılan məqalələrindən ibarət seçilmiş əsərindən [90] də istifadə edilmişdi.

Beləliklə, XX əsrin əvvəllərində Lənkəran qəzasının tarixini öyrənilməsinə dair toplanmış mənbəşünaslıq materialları bizə reallığın qiymətləndirilməsində mövcud elmi yanaşma və şərhləri təhlil etməyə və onun mahiyyətinin müəyyənləşdirilməsinə imkan yaradır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionunu siyasi, iqtisadi və mədəni tarixi təşkil edir. Tədqiqatın predmeti isə qeyd olunan dövrdə cənub-şərq regionunun sosial-siyasi, etno-demoqrafik, iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, 1917-1920-ci illərdə qəzasında baş verən ictimai-siyasi hadisələr, Azərbaycan Xalq Cümhuriyyətinin bütövlüyü uğrunda mübarizə və ərazi bütövlüyün bərqərar edilməsi, mədəni quruculuq məsələləri daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi mövcud mənbələr və yeni arxiv materialları əsasında XX əsrin əvvəllərində - çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şimali Azərbaycanın cənub-şərq regionunun etno-demoqrafik, siyasi, iqtisadi və mədəni quruculuq məsələlərin araşdırılmasıdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- tədqiq olunan dövrdə çarizmin regionda siyasətinin əsas mərhələlərini müəyyən etmək, etno-demoqrafik vəziyyətini, sosial-siyasi, inzibati-idarəçilik sisteminin tətbiqi prosesini izləmək və onun əsas istiqamətlərini müəyyən etmək, şəhər özünüidarəetmə orqanlarının fəaliyyəti və keçirilən seçki prosesinin mahiyyətini öyrənmək.
- regionun ictimai-siyasi vəziyyətini şərh etməklə çarizmin bölgədə köçürmə siyasətinin əsas mərhələlərini və mahiyyətini tədqiq etmək;

[90]Байрамалибеков Т. Избранные произведения / Т.Байрамалибеков. – Составитель и автор предисловия Э.Джавадова. – Баку: Элм ве техсил, – 2012. – 356 с.

- regionda sosial-iqtisadi inkişafına mane olan siyasi və iqtisadi ziddiyyətləri və çətinlikləri vurğulamaqla imperiyanın müstəmləkə siyasətinə qarşı mübarizə və kəndli çıxışlarını, onların səbəblərini araşdırmaq;

- I Dünya müharibəsi illərində regionda ictimai-siyasi və iqtisadi vəziyyəti müəyyən etmək;

- XX əsrin əvvəllərində Cənubi Qafqazda aparılan islahatlar kontekstində, onun cənub-şərq regionuna təsiri, kəndlilərin sosial-hüquqi statusunda baş vermiş dəyişiklikləri nəzərdən keçirmək, islahatlar nəticəsində qəzada baş verən sosial-siyasi dəyişiklikləri təhlil etmək;

- regionda aqrar münasibətlərin, kənd təsərrüfatın ayrı-ayrı sahələrini kompleks şəkildə tədqiq etməklə, sosial-iqtisadi dəyişiklikləri göstərməklə məhsuldar qüvvələrin inkişaf prosesini araşdırmaq;

- imperiyanın ağır torpaq və vergi siyasəti, regionda əkinçilik, maldarlıq, suvarma təsərrüfatları kimi aqrar sahələrinin inkişafını mərhələli şəkildə öyrənmək;

- regionun iqtisadi inkişaf prosesinin vəhdətini müəyyən edən ticarət, nəqliyyat, rabitə, balıqçılıq və kustar sənaye sahələrini tədqiq etmək;

- regionda təhsil, mədəniyyət və səhiyyə sahələrində mövcud vəziyyəti araşdırmaq;

- 1917-ci il fevral inqilabından sonra Azərbaycanın cənub-şərq bölgəsində ictimai-siyasi vəziyyət, bolşevik-erməni daşnak və rus-malakan quldur dəstələrinin regionda törətdiyi qırğınları araşdırmaq;

- regionda Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda mübarizə və onun qələbəsi, bu dövrdə sosial-iqtisadi vəziyyət və mədəni quruculuq məsələlərini tədqiq etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını tarixçilik prinsipi təşkil edir. Regionun sosial-siyasi, iqtisadi və mədəni inkişafı problemini elmi obyektivlik əsasında tarixi, məntiqi, müqayisəli tarixi, statistik kimi ümumi elmi və kompleks yanaşma metodlarından istifadə edərək öyrənilir.

Dissertasiya elmi obyektivlik, tarixin sistemli təhlili prinsiplərinə də əsaslanır. Obyektivlik prinsipi əsasında regionun ictimai-siyasi, iqtisadi, təhsil və mədəniyyət sahələrini öyrənməklə, geniş mənbə və ədəbiyyat bazası əsasında dövrün siyasi mənzərəsi tədqiq edilmişdir.

Eyni zamanda, mənbəşünaslıq və tarixşünaslıq prinsipi əsasında problem xronoloji ardıcıllıqla araşdırılmış, sistemli təhlil prinsipi əsasında fakt və hadisələr tədqiq edilmişdir.

Tədqiqat işini araşdırarkən tarixi-tipoloji, tarixi-müqayisəli, xronoloji, statistik elmi metodları kompleksindən də istifadə edilmişdi. Bu metodların və metodoloji prinsiplərin tətbiqi tədqiqatda qarşıya qoyulan məqsəd və vəzifələrin həllinə öz töhfəsini verir.

XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionunda imperiya hakimiyyət orqanlarının inzibati və siyasi fəaliyyətinin məzmununu müqayisə etmək üçün tarixi-müqayisəli, xronoloji, statistik elmi metodları kompleksindən də istifadə edilmişdir. Tarixi-tipoloji metod çar Rusiyasının regionunda inzibati siyasətinin ümumi xüsusiyyətlərini müəyyən etmək üçün əsas olmuşdur.

Tədqiqat işində qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmaq üçün tarixi-genetik metoddan da istifadə edilmişdir ki, bu da göstərilən dövrdə regionda ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərin mənşəyini, tarixi ənənəliyin davamı kimi, XX əsr tarixinin öyrənilməsinə imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim edilən dissertasiya işinin əsas müddəaları:

1. Tədqiq olunan dövrdə regionda etno-demoqrafik vəziyyət və inzibati-idarəçilik sistemini araşdırmaqla, əhalisinin etnik tərkibi xarakterizə edilmiş, müxtəlif yad qrupların burada yerləşdirilməsinə baxmayaraq ta qədim dövrdən burada birgə yaşayan türk və talış etnik qrupları dinamik dəyişikliklərə məruz qalmamışdılar. İqtisadi sabitlik əhalinin sayının kəskin sürətdə artmasına səbəb olmuşdur. Lənkəran şəhərinin özünüidarəyə keçirilən seçkilərin təhlili göstərir ki, regionun müsəlman əhalisi bütün təqiblərə baxmayaraq aparıcı qüvvə kimi imperiya idarəçiliyinə qarşı müəyyən təsir gücünə malik olmuşdular.

2. Çarizm yerli müsəlman kəndlilərin torpaq məsələsini həll etmədən rus əhalisinin regionda yerləşdirilməsini sürətləndirməklə yerli əhalinin öz doğma torpaqlarından qovulması üsyanlara gətirib çıxartmışdı. İmperiyanın zorakı köçürmə siyasəti ilə üzləşən qəzanın Alar kəndinin əhalisi heç bir torpaq payı ilə təmin edilmədən zorla öz ata-baba torpaqlarından qovulmuşdur.

3. İmperiyanın regionda tətbiq etdiyi ağır torpaq və vergi siyasəti nəticəsində əhalinin böyük kütləsini təşkil edən kəndlilərin vəziyyəti acınacaqlı olaraq qalmaqda idi. Kənd təsərrüfatında çalışan əhali xəzinənin nəfinə küllü miqdarda natural vergilər ödəməklə yanaşı, pul və biyar mükəlləfiyyətlərini yerinə yetirirdilər. Bütün bunlar regionda torpaq uğrunda mübarizəyə, aqrar hərəkatın başlanmasına, ictimai-siyasi vəziyyətin kəskinləşməsinə və çarizmin əsarətinə qarşı kəndli üsyanlarının başlanmasına səbəb olmuşdu.

4. Çarizmin müstəmləkə zülmü altında əzilən yerli xalqın vəziyyəti I Dünya müharibəsi illərində daha da ağırlaşmışdır. Hakim dairələr "müharibənin qələbəsi" naminə yerli əhali bütün qüvvəsini bu istiqamətə yönəldərək onu talamaqda idi. Qəzada yaradılmış Qırmızı Xaç və digər xeyriyyə cəmiyyətlərin xeyrinə əhalidən toplanan ianələr onların onsuzda ağır olan vəziyyətləri daha da ağırlaşdı. İmperiyanın ağır vergi və torpaq siyasətinə qarşı qəzada kəndlilərin üsyanı baş vermişdir.

5. Dissertasiya işində çar Rusiyasının hakimiyyəti dövründə Lənkəran qəzasında kənd təsərrüfatının ayrı-ayrı sahələri, onların inkişaf dinamikası müəyyən edilir. Tədqiq olunan dövrdə regionun aqrar və sənaye sahələrində əmtəə-pul münasibətlərinin inkişafı, yeni yollarının salınmasına və ticarətin inkişafına böyük təsir göstərmişdir.

6. Şimali Azərbaycanın cənub-şərq regionunda maarif və mədəniyyətin inkişafı yeni dünyəvi məktəblərin yaranmasına səbəb olmuşdur. İmperiya qüvvələrinin yerli kadrların hazırlanması məqsədilə yaratdığı rusdilli məktəblərdən başqa, müsəlman məktəbləri də yaradılmışdı. Tədqiq olunan dövrdə regionda səhiyyə sistemi o vəziyyətdə idi ki, əhali hələ də xalq təbabətindən istifadə etməkdə idi.

7. Rusiyada baş vermiş 1917-ci il fevral inqilabından sonra regionda S.Qulubəyovun rəhbərliyi ilə hakimiyyəti ələ alan müsəlman milli komitəsi bir sıra təşkilati işlər həyata keçirimişdir. Lənkəranda formalaşan Müsəlman süvari divizionunun silahla təmin edilməsi məqsədilə bolşeviklərinin təsiri altında olan 4-cü və 7-ci sərhəd alaylarını, İrandan gələn Rusiya məxsus "Milyutin" gəmisini, Astara sovetinin dəstəsini tərk-silah etməklə üstünlüyü ələ keçirmişdir.

8. Bakıda 1918-ci il mart soyqırımından sonra quberniya ərazisində üstünlüyü ələ alan malakan və bolşevik-erməni dəstələri regionda yerli müsəlmanlara qarşı kütləvi talanlara və qırğınlar həyata keçirmişlər. Regionun ərazisi keçmiş çar Rusiyasının sərhəd dəstəsinin, malakan və bolşevik-erməni daşnak quldur dəstələrinin mübarizə meydanına çevrilmişdir.

9. Malakanlara, bolşeviklərə qarşı mübarizə aparaq qəzanın müsəlman əhalisi Azərbaycan Milli Ordusu və yerli partizan dəstələrində birləşərək qəhrəmanlıqla öz doğma torpaqlarını düşmən işğalından azad etdilər. Cənub-şərq regionun düşmən qüvvələrindən təmizlənməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin edilmişdir.

10. Azərbaycanın Xalq Cümhuriyyəti dövründə regionun gələcək inkişafı üçün zəmin yaradan yeni təhsil və mədəniyyət müəssisələri təşkil edildi. Beləliklə əldə edilən nailiyyətlər və qabaqcıl təcrübə yüksək inkişafa doğru irəlilədi.

11. 1920-ci il aprel çevrilişindən sonra regionun bolşeviklər tərəfindən işğalı yerli əhali tərəfindən böyük etirazla qarşılanmışdır. Bolşevik işğalı ilə barışmayan yerli əhali partizan dəstələrində birləşərək Camal çavuşun rəhbərliyi ilə bolşevik hakimiyyətinə qarşı bir ilə qədər qəhrəmanlıqla mübarizə aparmışdılar.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatının elmi yeniliyi onunla müəyyən edilir ki, geniş mənbələrin, ədəbiyyatın təhlili və ümumiləşdirilməsi əsasında XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionunun siyasi, iqtisadi, təhsil, mədəniyyət və səhiyyə sahələri kompleks şəkildə tədqiq olunmuşdur. Tədqiqat işində problemə dair xeyli sayda yeni arxiv materialları elmi dövriyyəyə cəlb edilmişdir. Tədqiqatın elmi yenilikləri aşağıdakılardır:

- XX əsrin əvvəllərində regionda etno-demoqrafik vəziyyət, inzibati-idarəçilik və Lənkəran şəhər özünüidarə sisteminin əsas fəaliyyət istiqaməti, keçirilən seçkilərdə yerli müsəlman əhalinin mübarizə məsələləri tədqiqata cəlb edilmişdir;
- Rus əhalisinin regionda yerləşdirilməsinin əsas mahiyyəti, etnik proseslərə təsiri, köçürmə siyasətinə qarşı baş verən etirazlar və çarizmin yerli müsəlman əhaliyə münasibəti məsələləri öyrənilmişdi;
- Mövcud arxiv materialları və ədəbiyyat əsasında regionda çarizm əsarətinə qarşı üsyanlar və eləcə də, I Dünya müharibəsi

illərində qəzada ictimai-siyasi, iqtisadi vəziyyət təhlil edilərək araşdırılmışdır;

- XX əsrin əvvəllərində Şimali Azərbaycanın cənub-şərq regionunun sosial-iqtisadi vəziyyət araşdırılmaqla, əkinçilik, bostançılıq, arıçılıq, tərəvəzçilik, pambıqçılıq, tütünçülük, suvarma və sudan istifadə məsələləri, maldarlıq və s. kənd təsərrüfatı sahələri kompleks şəkildə tədqiq edilmişdir;
- Regionda mövcud olan balıqçılıq və kustar sənayenin müxtəlif sahələri ayrı-ayrılıqda dövrü mənbələr əsasında təhlil edilmişdir;
- Regionda torpaq münasibətləri, çarizmin vergi siyasəti, ticarət, nəqliyyat və rabitə sahələri araşdırılmışdır;
- Tədqiq olunan dövrdə Şimali Azərbaycanın cənub-şərq regionunda maarif, mədəniyyət və səhiyyə sahələri kompleks şəkildə tədqiq edilmişdi;
- 1917-il fevral inqilabından sonra regionda ictimai-siyasi, sosial-iqtisadi vəziyyət, hakimiyyəti ələ alan müsəlman milli komitəsinin fəaliyyəti və Lənkəranda Müsəlman süvari divizionun formalaşması məsələləri təhlil edilmişdir.
- Regionda 1917-il mart – 1919-cu il avqust ayına qədər yerli müsəlmanlara qarşı malakan, bolşevik-erməni daşnak dəstələrinin törətdiyi talanlar və qırğınlar araşdırılmışdır;
- Regionda Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizə və onun bərqərar edilməsi istiqamətində Azərbaycan ordusu ilə birgə yerli müsəlman silahlı dəstələrinin mübarizəsi tədqiq edilmişdir;
- Azərbaycan Xalq Cümhuriyyəti dövründə regionda aqrar vəziyyət, mədəni quruculuq məsələləri təhlil edilmişdi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin elmi-nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın elmi nəticələri Vətən tarixinin müvafiq bölmələrinin zənginləşdirilməsində, XX əsr Azərbaycan tarixinə dair mühazirə kursları və ixtisas dərslərinin hazırlamasında, eləcə də ümumiləşdirilmiş əsərlərin yazılmasında, elmi seminarların keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsində müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali

Attestasiya Komissiyasının lisenziyalı elmi jurnallarının siyahısına daxil edilmiş toplularda dərc edilmiş, bir sıra respublika və ölkə xaricində keçirilmiş konfransların məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Milli Azərbaycan Tarixi Muzeyində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 528.393 işarədən ibarətdir.

Giriş: işarə sayı – 44.476, I fəsil: işarə sayı – 169.449, II fəsil: işarə sayı – 115.110, III fəsil: işarə sayı – 52.530, IV fəsil: işarə sayı – 130.003, nəticə: işarə sayı – 16.825.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tarixşünaslıq və mənbəşünaslıq bazası öyrənilmişdir. Tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən olunur, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi əsaslandırılır, nəzəri və praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası, tətbiqi və quruluşu haqqında məlumat verilir.

**"Regionda ictimai-siyasi vəziyyət (1900-1916-ci illər)"** adlanan birinci fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqrafda tədqiq olunan dövrdə regionun **"Regionda etno-demoqrafik proseslər və inzibati-idarəçilik sistemi"** araşdırılır. Şimali Azərbaycanın cənub-şərq regionu, Xəzərin cənub-qərb sahillərini, cənubda Astara çayı, qərbdə Talış dağları, şimalda isə Bolqaruçay boyu Muğan düzənliyinin cənub hissəsini əhatə edən Lənkəran qəzası Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi kimi 1840-ci il 10 aprel qanunu əsasında yaradılmışdı. Qəzanın mərkəzi Lənkəran şəhəri idi. Qəza Səbidaş, Lənkəran, Ərkivan, Zuvand, Astara olmaqla beş polis sahələrə (nahiyələrə)[91] və bir neçə kəndi özündə birləşdirən kənd cəmiyyətlərinə bölünmüşdür. Qəzanın mərkəzi olan Lənkəran şəhər özünüidarəsinə dörd ildən bir səsvermə yolu ilə seçilən şəhər rəhbəri

[91] Кавказский календарь на 1917 год. с. 13-19.

başçılıq edirdi. Regionu isə qubernatorun təyin etdiyi qəza rəisi, polis pristavı idarə edirdi.

Regionun iqtisadi cəhətdən inkişafı əhali artmasına böyük təsir göstərmişdir. Mövcud statistik mənbələr əsasən 1897-ci ildə Lənkəran qəzasında 120.233 nəfər azərbaycanlı, 104.25-i rus olmaqla 131.361 nəfər yaşayırdısa[92], 1915-ci ildə isə bu rəqəm 147.555 müsəlman, 20.316 rus və digər xalqlar olmaqla 187.515 nəfərə[93] çatmışdır. Lənkəran şəhərində isə 1915-ci ildə 17.801 nəfər yaşayırdı[94].

Regionda əhalinin artmasının digər səbəblərdən biri Qacarlar dövlətinin ərazisindən xeyli sayda işçinin gəlməsi idi. Pasport almaqda çətinliklər yarandığı üçün emiqrantların əksəriyyəti sərhədi qanunsuz keçirdilər[95]. Qəzanın demək olar ki, hər kənddə bütün çəltik və taxıl zəmilərində çalışan gəlmələrin daimi evləri var idi[96].

Çar Rusiyasının 1870-ci il 16 iyun şəhər "Əsasnamə"sindən 26 il sonra, 1896-ci il iyulun 26-da yaradılan Lənkəran şəhər özünüidarəsinə 4 ildən bir təyin edilən seçkilər böyük mübarizə şəraitində keçmişdir.

Qəzanın nahiyələrini idarə edən pristavlar yerli xalqın dilini, adət və ənənələrini bilmədiyindən xalqa etdiyi zülm etirazlara səbəb olmuşdur. Baş verən etirazlar 1905-ci ildə qaçaq Hacıağa Cabbar oğlu tərəfindən sahə pristavı Saçenko-Sakunun öldürülməsi ilə nəticələnmişdir[97]. Hökumət mövcud narazılığın qarşısını almaq məqsədilə qəzada yerli məmurları pristav təyin etsə də bu mövcud vəziyyəti nizama sala bilməmişdir.

"**Rusların regionda yerləşdirilməsi və onların etnik proseslərə təsiri**" adlanan ikinci paraqrafda Rusiya imperiyası regionda

[92] Кавказский календарь на 1912 год. – с. 250-251.
[93] Кавказский календарь на 1916 год. – с. 38-39.
[94] Кавказский календарь на 1917 год.– с. 180-181.
[95] Шукюров, К. Миграция населения между Россией и Ираном в XIX-XX веков (политико-правовые вопросы) // Швеция: Кавказ & Глобализация. – 2009. том 3, Выпуск 2-3, – с. 217.
[96] Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri) / Redaktor: Ə.N.Quliyev, V.D.Moçalov, tərcümə redaktoru M.İsmayılov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1956. – s. 140-141.
[97] Əsədov, F. Talış diyarının keçmişinə bir nəzər. – s. 16.

möhkəmlənmək və özünə dayağı yaratmaq məqsədilə kütləvi şəkildə ermənilər, rusları, əsasən də xristian təriqətçilərini köçürməsi, əsas mahiyyəti, etnik prosesə təsiri məsələləri tədqiqata cəlb edilmişdir. Regionun etnik tərkibinə edilən bu zorakı təsir nəticəsində ilk əvvəl təriqətçi rusların sürgün ərazisi olsa da, sonrakı dövrlərdə onların kütləvi məskunlaşma ərazisinə çevrilmişdir.

Cənubi Qafqazda o cümlədən Lənkəran qəzasında 1838-1905-ci ilə qədər 13 rus kəndi yaradılmışdır[98]. Rusların regionda yerləşdirilməsi ilə bağlı “Cavahirnamei-Lənkəran” əsərində də qeyd olunduğu kimi, imperiyanın ayrı-ayrı yerlərindən regiona köçmüş ruslar aztorpaqlı yerli əhalinin güzəranı pozulmuş, həyatları ağır vəziyyətə düşmüşdür[99]. Regionda böyük üstünlüyə malik olan rus kəndlilər yerli əhalidən fərqli olaraq məhdudiyyətsiz sayda geniş əraziyə sahib idilər[100].

Regionda köçürmə işlərinin sürətlndirmək məqsədilə 1904-cü ilin mayında dövlət əmlak və əkinçilik nazirliyi yanında xüsusi tapşırıqlar üzrə köçürmə məntəqəsinin qəza rəisinin sərəncamına verilməsi, Muğanda rus məskənlərin salınmasında əngəl olan alarlıların öz torpaqlardan çıxarılmasına səbəb olmuşdur.

Çar məmurlarının özbaşınalığı nəticəsində yüzlərlə günahsız kəndli aclığa və səfalətə düçar edilmişdir. Dövlət Dumasının üzvü M.Y.Cəfərov 1913-cü il iyunun 11-də məclisdə çıxışında “yerli əhalinin maraqlarını nəzərə almayan çarizmin əraziyə köçürdüyü ruslar ən yaxış torpaqları zəbt edərək qaydasız şəkildə geniş bir ərazidə məskunlaşdığını”, “siyasətin qurbanına çevrilmiş, bu özbaşınalığa qarşı olan yerli xalq düşmən obrazı kimi təqdim edildiyini” bildirərək öz etirazını bildirmişdir[101].

Çarizmin regionda yeritdiyi köçürmə siyasətinin subyektiv mürtəce məqsədlərinə baxmayaraq, onların bəzi mütərəqqi cəhətləri də var idi. Yerli kəndlilərin primitiv kənd təsərrüfatı alətləri ilə tanış-

---

[98]Кузминский, А.М. Всеподданнейший отчета о произведенной в 1905 году. - с. 507.

[99]Kazım bəy oğlu, Səyid Əli. Cavahirnamei-Lənkəran. – s. 16.

[100] Ил. Жабин. Хозяйственный быт села Привольного // Тифлис: Кавказское сельское хозяйство. – 1897. № 157,  – с. 22.

[101] Переселенческий вопрос // Каспий. – 1913, 19 июня. – с. 4.

lığında və kənd təsərrüfatı sahələrində yeni təcrübənin mənimsənilməsində xüsusi rola malik olmuşdular.

**"Regionda sosial vəziyyət və kəndli üsyanları"** adlı üçüncü paraqrafda Şimali Azərbaycanda çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində kəndlərdə hökm sürən səfalət, kəndlilərin aztorpaqlı və torpaqsız vəziyyəti, ağır mükəlləfiyyətlər səbəbilə regonda baş verən kəndli çıxışları araşdırılmışdır.

XX əsrin əvvəllərindən başlayaraq qəzada artan kəndli çıxışları, çarizm üçün ciddi təhlükə mənbəyinə çevrilmişdir. Bu çıxışlar sosial xarakterli olmaqla, mütləqiyyət quruluşuna qarşı mübarizə formasında özünü göstərmişdir. Tədqiq olunan dövrdə qəzada aqrar hərəkatlar olduqca kütləvi xarakter almağa başlamışdır. Əgər əsrin ilk ilində qaçaq dəstələrin sayı 4 idisə, çox keçmədən, onların sayı 12-yə çatmışdır[102]. 1906-cı il iyulun 24-də qəza rəisi Çussin rəhbərliyi ilə hazırlanmış əməliyyat nəticəsində qaçaq dəstələr məğlub edilmişdir.

Tədqiq olunan dövrdə qəzada qaçaqçılıq hərəkatı ilə yanaşı kəndli üsyanları da kütləvi hal almışdır. Kəndli üsyanından qorxuya düşmüş Qafqaz polis idarəsi rəisi 1906-ci il yanvarın 20-də quberniya və qəzaların polis pristavlarına göndərdiyi təlimatda kəndlilərin hər cür çıxışlarına – mülkədar torpaqlarını, meşələri və meşələri tutmaq, "qarət etmək", hökumətə müqavimət göstərmək və başqa üsyankar çıxışlarına qarşı ən qəti tədbirlər görməyi və heç bir tərəddüd göstərmədən silah işlətməyi tələb edirdi[103].

Aparılmış araşdırmalar göstərir ki, qəzasında müstəmləkə zülmünə qarşı kəndlilərinin çar hakimiyyətinə və yerli istismarçılara nifrəti o qədər böyük idi ki, nə həbslər və sürgünlər, nə də qeyri-müəyyən islahat vədləri onları bu mübarizədən döndərə bilməmişdir.

"**I Dünya müharibəsi illərində regionda ictimai-siyasi vəziyyət"** adlanan dördüncü paraqrafda çar Rusiyasının ucqar əyalətindən biri olan Lənkəran qəzasında da imperiya ordusunun ərzaq və maddi vəsaitlə təmin edilməsi istiqamətində yaradılmış Qırmızı Xaç və

---

[102] Гусейнов, Д.Х Движение качагов в Азербайджане в 1900-1910 гг. – с. 182-183.

[103] Рапорта Кавказского полицейских управлении (Тифлис: 1906, 20 января) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 46, siyahı № 20, iş № 1, vərəq – 4.

digər xeyriyyə cəmiyyətlərin fəaliyyəti və qəzada mövcud vəziyyət tədqiq edilmişdir.

Müharibəsi zamanı ərzaq böhranının qeyri-adi dərəcədə dərinləşməsi nəticəsində, qəzasında ərzaq məhsulları çatışmazlığı və onların qiyməti xeyli bahalaşmışdı. Qəzada taxıl, ət, qənd və digər ərzaq məhsulları kəskin surətdə bahalaşdı. 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə, kəndlilərindən alınan dövlət torpaq vergisi 11 faiz artırıldı[104]. Bu azmış kimi, müharibə regionun iqtisadiyyatına ağır tənəzzülə uğratmış, kənd təsərrüfatın digər sahələrlə yanaşı heyvandarlıq da ağır zərbə vurmuş, iş heyvanlarının 70 faizi səfərbərliyə alınmışdır.

Beləliklə, müharibənin ağır nəticələri qəza əhalisinin vəziyyəti daha da ağırlaşdırdı. Qəzada qıtlıq, bahalıq, çar məmurlarının rüşvətxorluğu, ölüm hadisələrinə çoxalmasına səbəb olan müxtəlif xəstəliklər və kəndlilərin istismarı daha da gücləmişdi. Bundan təngə gələn kəndlilər kütləvi surətdə vergiləri ödəməkdən və mükəlləviyyətləri yerinə yetirməkdən boyun qaçırır, çar məmurlarına və polisə silahlı müqavimət göstərirdilər.

İmperiya qüvvələri Lənkəran qəzasında baş verə biləcək silahlı üsyanların qarşısını almaq məqsədilə 1915-ci ildən başlayaraq əhalisində zorla müxtəlif növ silah-surtat toplanılmışdır[105]. Bununla, imperiya qüvvələri "etibarsız əhali" kimi baxdıqları yerli əhalini daimi nəzarətdə saxlayaraq öz dindaşlarını qorumaq adı ilə silahlandırmışdır.

**"İqtisadi vəziyyəti"** adlı ikinci fəsil 3 paraqrafdan ibarətdir. "**Regionda kənd təsərrüfatı və aqrar münasibətlərin inkişafı"** adlanan birinci paraqrafda regionda mövcud olan təsərrüfat sahələri araşdırılmışdır. Şimali Azərbaycanın cənub-şərq regionunun təbii-coğrafi şəraitinə uyğun olaraq yerli əhali başlıca olaraq əkinçilik,

---

[104]Hüseynov, C.X. Birinci dünya müharibəsi dövründə Azərbaycan kəndində vergi və mükəlləfiyyət əsarətinin daha da güclənməsi // – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu. Azərbaycan Tarixi Məsələləri (Aspirant məqalələri külliyyatı). – 1966. – s. 120.

[105]Ведомость огнестрельному оружию, отобранному у населения Бакинской губернии в течении 1 и 2 трети апреля месяца 1915 г. (Баку: 1915, 10 мая) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 1, siyahı, № 1, iş № 247, vərəq – 2-3.

bağçılıq, arıçılıq, ipəkçilik, üzümçülük, pambıqçılıq, tütünçülük və s. sahələrlə məşğul olmuşdur. Bu baxımdan, Lənkəran qəzasının təbii-coğrafi şəraitdən irəli gələn amillər müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafın böyük təsir göstərmişdir.

Qəzada çəltikçiliyin aparıcı bir sahə kimi inkişafı etmişdir. Dövri mənbələrə əsasən, XX əsrin əvvəllərində Cənubi Qafqazın taxıl anbarından bir hesab edilən qəzada mövcud olan 17.000 desyatin torpaq sahəsində orta hesabla hər desyatindən 150 pud məhsul əldə edildiyi halda, illik istehsalının 2.550.000 puda çatdığını müəyyən edə bilərik[106]. Əhali çəltikçiliklə yanaşı taxılçılıqla da məşğul idilər. Tədqiq olunan dövrdə qəzada 2.988.463 pud payızlıq buğda istehal etməklə quberniyada buğda istehsalına görə birinci yerdə qərarlaşmaqla quberniyanın əsas taxıl anbarı hesab edilirdi[107].

Regionda taxılçılıqla yanaşı əsas gəlirli sahələrindən biri kimi yemiş, qarpız və tərəvəz kimi bostan bitkiləri geniş şəkildə yetişdirilirdi. Regionun dağlıq hissəsində Zuvand yetişdirilən kartof öz keyfiyyətinə görə daha üstün sayılırdı, düzən ərazidə yetişdirilən kartofdan daha baha qiymətə satılırdı[108]. Qəzada yetişdirilən pambıq və tütün əhali üçün xarakterik təsərrüfat sahələrindən birinə çevrilmişdir[109].

Qəza əhalisi digər təsərrüfat sahələri ilə yanaşı bağçılıq və arıçılıqla da məşğul olurdu. Qəzada heç bir qulluq göstərilmədən arılardan xüsusi dada və iyə malik olan “xanbalı” istehsal edilirdi[110].

Qəzanın çox hissəsində əhalisi başlıca olaraq çəltikçiliklə məşğul olması suya böyük tələbatın yaranmasına səbəb olmuşdur. Qəzada əhalisinin başlıca suvarma mənbəyi su anbarları – istillərdən ibarət idi. Suyun istifadəsi və paylanması xüsusi seçilmiş şəxslər - mirab və onların köməkçiləri – abyar tərəfindən nəzarət edilirdi. Regionda mirabların özbaşınalığı kəndlilərin ciddi etirazına səbəb

---

[106] Очерк сельского и лесного хозяйства Ленкоранского уезда, Бакинской губернии. – с. 80.
[107] Обзор Бакинской губернии за 1911 год. – с. 6-7.
[108]Кистинев Д.А. Источники благосостояния крестьян Ленкоранскаго уезда // Тифлис: Труды Кавказскаго общества сельскаго хозяйства, – с.159.
[109]Обзор Бакинской губернии за 1913 год. – с. 15.
[110] Новоселов, М.О. Первая колония русских переселенцев в Ленкоранском уезде // – Тифлис: Кавказское сельское хозяйство, – 1895. № 89, – с. 1381.

olmuşdur[111]. Çar hökumət mövcud etirazların qarşısını almaq məqsədilə suvarma təsərrüfatını nizama salmaq üçün 1890-ci il 3 dekabr qanunu qəbul etsədə, bu vacib problemi həll edə bilməmişdir.

Regionun gözəl dağ çəmənləri bərəkətli qış və yay otlaqların olması maldarlığın inkişafına böyük təsir göstərmişdir. Bakı quberniyasında heyvandarlıq ticarətin həcminə görə ən böyük bazar qəzanın Hasulla kəndində yerləşirdi. Burada il ərzində 240 at, 27 min baş iribuynuzlu heyvan, 12 min baş xırdabuynuzlu heyvan satışa çıxarılırdı.

İkinci paraqrafda Şimali Azərbaycanın cənub-şərq regionunda **"Balıqcılıq və kustar sənaye sahələrinin inkişafı"** bir problem kimi araşdırılmışdır. Bildiyimiz kimi regionun zəngin çayların, göllərin olması və dəniz sahilində yerləşməsi ilə yeyinti məhsulları istehsalı sahəsində balıqdan hazırlanan məhsullar xüsusi yer tuturdu. XIX əsrin 90-ci illərin əvvəllərindən başlayaraq regionda balıq istehsalı yeni kapitalist icarəsi əsasında daha da artmağa başladı. Bunun əsas səbəbi 1880-ci ildə regionun balıq təsərrüfatında, köhnəlmiş, inkişafını ləngidən icarə (otkup) sisteminin ləğv idi. Yeni sistemə əsasən balıqçılıq sahələri azad hərrac əsasında 5 il müddətinə ayrı-ayrı şəxslərin istifadəsinə verilmişdir[112]. Mənbələrin verdiyi məlumata görə Qafqazda hər il 40-100 min ədəd balıq tutulduğu halda, balıq evi adlanan Lənkəran sahillərində bunların sayı milyondan çox idi. Bundan əlavə, burada 1000 boçka preslənmiş və maye kürü, 500 pud nərə balıqları yapışqanı, 200 pud naqqa balığı məhsulu istehsal edilmişdir[113].

Qəzada balıq sənayesinə yerli kapital axını 1906-cı ildən etibarən xeyli genişləndi. Regionun balıq sənayesində xarici sahibkarlarla yanaşı yerli kapitalistlərində vətəgələrə var idi[114].

---

[111]Рапорт Ленкоранского уездного начальника от 9 августа 1912 года за № 5432, на имя Бакинского губернатора // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 185, siyahı, № 18, iş № 547, vərəq – 1-2.

[112] Обзор фабрик и заводов Бакинской губернии / Историко-статическое описание фабрично-заводской деятельности Бакинской губернии в связи с развитием в ней кустарных промыслов: С планом балаханской площади. с. 141-142.

[113] Живописная Россия / Под ред. П.П. Семенова. - СПб. - М. Издание книгопродавца – типографа М. О. Вольфа, - Том IX.- 1883. - с. 215.

[114] Список: лич, арендующих казенные ватажные усачткы 9 района а указанием их званий и постоянном местожительстве (1915, 9 декабря) //

Regionda ənənəvi sənət sahələrində kapitalıst münasibətlərinin inkişafı onların ixracını sürətləndirmişdir. Mövcud tələbatı baxımından, qəzada kustar sənaye sahələri geniş yayılmışdı. Qəzada bal-pivə və "Veyner" pivə zavodları fəaliyyət göstərmişdir.

XX əsrin əvvəllərində Lənkəran qəzasında müxtəlif ənənəvi sənət sahələrinin inkişafı əhalinin iqtisadi həyatına böyük təsir göstərmişdir. Bu baxımdan yeri əhali yundan xalça və xalça məmulatları, corab, əlcək, keçə, kişilər üçün üst paltarları və başqa şeylər toxuyurdular. M.H.Baharlı Azərbaycanda 5 xalçaçılıq məktəblərindən biri kimi, Lənkəran qəzası xovsuz xalçalarla və kilimlə şöhrət qazandığını qeyd etmişdir[115].

Bu dövrdə yerli əhalinin qədim ənənəvi sahələrindən biri də həsirçilik və duzçuluq sənəti xeyli inkişaf etmişdir. Duzçuluq əsasən qəzanın "Separadi, Ərkivan, Şağlaküçə və Privolnı kəndlərində geniş yayılmışdır"[116]. Regionda sənaye xarakteri almış sənaye sahələrindən biri kərpic istehsalı müəssisələri idi.

Üçüncü paraqrafda **"Ticarət və ticarət yolları"** bir problem kimi tədqiqata cəlb edilməmişdir. Şimal və cənub tranzit yolunun üstündə yerləşməsi regionun iqtisadi həyatına böyük təsir göstərmişdir. Regionun əsas ticarət mərkəzi olan Lənkəran satış bazarına təkcə qəzanın kəndlərindən deyil, qonşu əyalətlərdən də (əsasən mal-qara, meyvə-tərəvəz, ağartı məhsulları, bal və s.) kənd təsərrüfatı məhsulları gətirilirdi[117].

Lənkərand qəzasında ticarətin inkişafına mənfi təsir göstərən yolların vəziyyəti olduqca acınacaqlı vəziyyətdə olması haqqında T.Bayraməlibəyov yazırdı: "ərazinin zənginliyinə, torpağın bərəkətinə baxmayaraq, rahat yolların olmaması kəndlərini dəhşətli yoxsul-

---

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 106, siyahı, № 1, iş № 1430, vərəq - 7-8.; В Ленкоранском полицейском управлений на отдачу в в арендное содержание Ленкоранского рыболовного участка (Ленкорань: 1907, 2 февраля) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 106, siyahı, № 1, iş № 426, vərəq - 50-55.

[115] Vəliyev (Baharlı), Məhəmməd Həsən. Azərbaycan. - s. 119.

[116] Хатисов, К. Кустарные промыслы закавказского края. - с. 336.

[117] Очерк сельского и лесного хозяйства Ленкоранского уезда. - с.101-102

luğa ducar etmişdir. Əgər yeni yol şəbəkəsi inkişaf etdirilsə, kəndli məhsulunu satacaq və yoxsulluq yox olacaqdır”[118].

Müəllif daha sonra yazırdı: “şəhər özünüidarə təşkilatı hələ 16 mart 1901-ci ildə quberniya başçısına bu yolun layihəsini təqdim edərək onun çəkilişinə icazə istəmişdir. Lakin bu məsələ öz həllini tapmamışdır. 1913-cü il mayın 21-də yollar nazirliyinin yeni dəmir yolların çəkilməsi işlərinə baxan komissiya 1914-cü il iyunun 20-də cəmiyyətin nizamnaməsini təsdiq etərkən Ələt-Astara dəmir yolu xəttini çəkməyə icazə vermişdir. Lakin I Dünya müharibəsinin başlanması bu layihənin həyata keçməsinə mane oldu[119].

**“Təhsil, mədəniyyət və səhiyyə”** adlanan III fəsil iki paraqrafdan ibarətdir. “**Regionda maarif və mədəniyyətin inkişafı”** adlı birinci yarımfəsildə Şimali Azərbaycanın cənub-şərq regionun təhsil tarixi araşdırılmışdır. Regionda məktəb şəbəkəsinin inkişafında regionun görkəmli maarif xadimlərinin xüsusi rolu vardır.

Regionda XIX əsrin ortalarında formalaşan dünyəvi məktəblər yerli ziyalıların səyi nəticədsində qısa müddətdə xeyli inkişaf etmişdir. Regionda 1907-ci il sentyabrın 15-də beş illik “Behcət”, 1909-cu ildə “Ziya” adlı rus-türk məktəbi fəaliyyətə başlamışdır. Lakin süni əngəllər nəticəsində vəsait çatışmamazlığı səbəbindən bu məktəblər bağlanır. Lakin bu təqiblərə baxmayaraq Teymur bəy səyi nəticəsində 1911-ci ildə Lənkəranda ikisinifli rus-türk ibtidai məktəbi yaradılır[120]. XX əsrin əvvəllərində qəzasında bu tədris ocaqları ilə yanaşı, ikisinifli, dördsinifli məktəblər və gimnaziyalar təşkil edilmişdi. 1914-1915-ci dərs ilində qəzada mövcud olan 68 məktəbdə 68 müəllimin dərs dediyi 884 şagirdi təhsil almışdır[121]. 1916-ci il iyulun

---

[118] Ленкорань (от нашего корреспондента) // Каспий. - 1902, 2 ноября. - с.3.
[119] Vəliyev, T.T. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda dəmir yolu çəkilişi tarixindən. - 1984. № 2, - s. 49-50.
[120] Его Превосходительству Господину директору народных училищ: Председател училищной при городской думе комиссии (Баку: 4 ноября 1910 // Azərbaycan Respublikası Tarix Dövlət Arxivi, Fond № 309, siyahı № 4, iş № 776, vərəq – 2.
[121] Школьная сеть по Ленкоранскому уезду Бакинского губерния. Составлена в 1914 году: Инспектор народных училищ 1-го района Бакинско-Дагестанской дирекции М.Коптелов. // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 309, siyahı № 1, iş № 1074, vərəq – 1-24.

13-ə aid sənədə əsasən məktəbdə 100 şagird təhsil alırdı[122]. Lənkəran şəhər idarəsinin qız uşaqlarının savad alması üçün 1904-cü ildə açılmış ikisinifli məktəb 1908-ci ildə dördsinifli, 1915-1916-ci tədris ilində isə yeddisinifli gimnaziyaya çevrilmişdir. Beləliklə bütün çətinliklərə baxmayaraq regionda yerli müəllimlərin səyi nəticəsində məktəb şəbəkəsi inkişaf etmişdir.

Regionda təhsilin inkişafı nəticəsində tədqiq olunan dövrdə elmi biliklər də inkişaf etmişdir. XIX-XX əsrin əvvəllərində regionun tarixi və mədəniyyəti ilə bağlı, salnaməçi tarixçilərdən Mirzə Əhməd Mirzə Xudaverdi oğlu "Əxbarnamə", Səyid Əli Kazım bəy oğlunun "Cavahirnamei-Lənkəran" əsərlərində, görkəmli maarifçilərdən Mirzə Məmmədəli Səfiyev, Tiflisdə çıxan "Zakavkazski vestnik" və "Kavkaz" qəzetlərində, T.Bayraməlibəyovun dövri mətbuatda dərc olunmuş məqalələrində qiymətli məlumatlar vermişdir.

Regionda tarixi dəyərlərin tədqiqi və təbliği ilə yanaşı ədəbi mühitdə inkişaf etmişdir. XIX əsrin II yarısında Mirzə İsmayıl Qasirinin təşəbbüsü ilə Lənkəran şəhərində formalaşan və bütün regionun yaradıcı insanları öz ətrafında birləşdirən "Fövcül-füsəha" ("Gözəl danışanlar") ədəbi məclisində, yaradıcı qabiliyyətli, şerləşmə bacarığı olan hər bir şəxs fərdi poeziyası və elmi müzakirələrdə iştirak edirdi.

Tədqiq olunan dövrdə regionda mütərəqqi fikirli ziyalılar maarifin, ədəbiyyatın inkişafında və xüsusən teatr sənətinin inkişafında T.Bayraməlibəyovun, M.A.Əliyevin, M.İ.Talışinskinin böyük xidmətləri olmuşdur. T.Bayraməlibəyov 1903-cü ildə Lənkəranda təşkil etdiyi həvəskarlar teatr qrupu, bu sahənin inkişafına böyük təsir göstərmişdir

**"Səhiyyə"** adlanan ikinci paraqrafda tədqiq olunan dövrdə regionun səhiyyə tarixi tədqiqata cəlb edilmişdir. Tədqiq olunan dövrdə Lənkəranda bir şəhər xəstəxanası, 3 həkim, 6 feldşer, 2 mama, 1 əzaçı və 1 aptek fəaliyyət göstərirdi. Qəzada səhiyyə xidmətinin zəifliyi müxtəlif yoluxucu xəstəliklərin yayılmasına, ölüm hadisələrinin çoxalmasına səbəb olurdu. Yerli əhali əsas gümanı əsrlər boyu

---

[122]В управление земледелия и государственных имуществ Бакинской губернии и Дагистанской области (Баку: 1916, 13 июля) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 309, siyahı № 1, iş № 1006, vərəq – 18.

istifadə etdiyi müalicəvi qaynaqları idi. Lənkəran qəzasında mövcud olan isti sus qaynaqları xəstəliklər şəfaverici mənbəyinə çevrilmişdir.

Cənubi Qafqazda kənd həkim məntəqələrinin yenidən qurulması haqqında 1904-cü il 8 mart tarixli qanuna əsasən qəzada mövcud olan xəstəxanada çarpayıların sayı 4-dən 6-ya qədər artmışdır[123]. Qanuna əsasən əlavə olarq Lənkəran qəzasında xəstəxanaların sayı ikiyə çatır. Bütün çətinliklərə baxmayaraq, qəzada geniş yayılmış müxtəlif xəstəliklərə qarşı mövcud imkan daxilində mübarizə aparılırdı.

**"Cənub-şərq regionu 1917-1920-ci illərdə"** adlanan IV fəsil dörd yarımfəsildən ibarətdir. Birinci paraqtafda **"Fevral inqilabından sonra regionda ictimai-siyasi vəziyyət"** araşdırılır. Fevralın 28-də Peterburqda demokratik inqilabın qələbə xəbəri Lənkəranda hədsiz sevinclə qarşılandı. Çarın devrilmə xəbərini eşidən kimi, 100 il ərzində onun hədsiz işgəncələrindən təngə gəlmiş kəndliləri mülkədar və dövlət torpaqlarını zəbt etməsi ilə qəzada kəndli hərəkatının yenidən başlanmasına səbəb oldu.

Qəzada vəziyyəti nizama salmaq və baş verə biləcək hadisələrin təkrarlanmaması məqsədilə Bakı quberniya icraiyyə komitəsi "Açıq söz" qəzetinin redaktoru M.Ə.Rəsilzadəni və kadet Kuznetsovun iştirakı ilə 1917-ci ilin martında Lənkəranda keçirilmiş seçkilərə əsasən S.Qulubəyov qəza icraiyyə komitəsinin sədri seçilmişdir[124].

Lakin qəzada məksunlaşan rus malakan kəndlilərinin mövcud yerli idarəçiliyə qarşı qiyamı nəticəsində Səbidaş nahiyəsində təhlükəli vəziyyəti daha da mürəkkəbləşdi. Sovet tarixşünaslığına əsasən "rus şovinist millətçiləri əsgərlərlə əhali arasında düşmənçilik əhvalı-ruhiyyəsi yayaraq qəzada qırğın törətməklə, zəhmətkeş kəndliləri döyür, təhqir edir, hətta bəzən öldürürdülər"[125]. Bunun məntiqi nəticəsi kimi, 1917-ci il sentyabrın 23-də Prişibdə rus əsgərlər tərəfindən 14 nəfər müsəlman məhkəməsiz olaraq vəhşicəsinə tikə-tikə doğranılmışdı[126].

---

[123]Hüseynbalaoğlu, B.H., Talışlı, M.M. Lənkəran. - s. 162-163.

[124] Rəsulzadə, M.Ə. Əsərləri. [IV cild]. - s. 93-94

[125] Əzimov, H. Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər). - s. 104.

[126] По Бакинской губернии: Волнения в Пришибе // Каспий. - 1917, 1 (14) октября. – с. 3.

Regionda baş verən özbaşınalığın qarşısını almaq və milli silahlı dəstələri möhkəmlənmək məqsədilə, Müsəlman Şurasının fəalları 1918-ci ilin yanvar ayında qəza bolşeviklərinin təsiri altında olan 4-cü və 7-ci sərhəd alaylarını tərk-silah etdi. Lənkəranda "Milyutin" gəmisinin tərksilah edilməsi nəticəsində 6 pulemyot, 3 min tüfəng, 85 min patron, 10 yeşik bomba ələ keçirilmişdi [127].

Lənkəranda yerli müsəlman icmasının üstünlüyü ələ alması Müsəlman süvari divizionunun burada formalaşdırılması qərarı verilmişdir. 1918-ci il fevralında Lənkəranda yerləşən divizyona hərbi ləvazimatla təmin edilmişdir. Regionda yeganə hərbi qüvvə olan Müsəlman süvari divizionu İsgəndər bəy Məlikbəyov[128] rəhbərliyi ilə malakanların özbaşınalığına son qoymaq məqsədilə 1918-ci ilin martın axırlarında Nikalayevka kəndi istiqamətində hərəkət edərkən yolda malakan qiyamçıları tərəfindən məğlubiyyətə uğradıldı [129]. Yerli müsəlman əhalisinin yeganə dayağı olan divizionun zəifləməsi bolşeviklərin güclənməsinə səbəb olmuşdur.

Qəzada milli qüvvələrin fəallığından təşvişə düşən erməni Şaumyanın başçılıq etdiyi Bakı sovetinə məxsus bolşevik-erməni silahlı qüvvələrini daşıyan "Aleksandr Jander" gəmisi 1918-ci il martın 30-dan (aprelin 17-də) başlayaraq dəniz sahiliboyu bütün kəndləri topa atəşi ilə dağıdıldı. Lənkəran şəhəri ələ keçirən bölşevik-erməni dəstələrinin qırğınları nəticəsində qəzada 40-a yaxın kənd yandırıldı, minlərlə günahsız müsəlman tələf edildi[130].

Beləliklə 1919-cu ilin avqust ayına qədər Lənkəran qəzası, bir-birinin ardınca baş verən hakimiyyətə dəyişikliyi nəticəsində bolşevik-erməni birləşmiş dəstələrinin və malakanların qırğınlarına məruz qalmışdır.

İkinci paraqrafda **"Regionda bolşevik-erməni daşnak dəstələrinin müsəlman əhaliyə qarşı törətdiyi qırğınlar"** araşdırılmışdır. Şimali Azərbaycanın cənub-şərq regionunda cəmləşən milli

---

[127]Lənkəran hadisələri // Açıq söz. - 1918, 28 yanvar. – s. 2.

[128] Süleymanov, M. Azərbaycan ordusu (1918-1920). – s. 46.

[129] Qulubəyli Soltan Məhəmməd bəy. Təlatümlü illər "Xatirat". – s. s. 34-35.

[130]Kərimov, B.B. Lənkəran qəzasında Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda mübarizə. "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları. Tarix İnstitutu. Elmi Əsərləri. 2018, №70, s. 282-288.

qüvvələri tərksilah etmək məqsədilə bolşevik birləşmələrin əsas qüvvəsini təşkil edən erməni quldurları və qəzada mövcud olan malakan dəstələri ilə birlikdə tam bir il üç ay ərzində qəzasında dinc əhaliyə qarşı vəhşiliklər törətmiş, minlərlə dinc müsəlman əhalini qırğına məruz qoymuşdur.

Regionda baş verən özbaşınalığı qələmə alən ağqıvardiyaçı zabit V.A.Dobrının öz xatirələrində yazırdı: "Bolşevik-erməni dəstələrinin gəldiyini eşidən tatarlar (azərbaycanlılar) qırğınlardan qorumaq üçün meşələrə və dağlara qaçırdılar. Qaça bilməyən şəhər əhalisi ermənilər tərəfindən öldürüldü"[131]. Beləliklə, Şaumyanın rəhbərliyi ilə bolşevik-erməni birləşmələri aprelin 14-də qəzada sovet hakimiyyəti adı ilə erməni hökumətini yaradaraq dinc müsəlman əhaliyə qarşı törətdiyi qırğınlar nəticəsində qəzada yüzdən çox kənd yandırılmış, minlərlə silahsız müsəlman əhali məhf edilmişdir.

Əlacsız və çətin vəziyyətdə qalan Lənkəran müsəlmanları nicat yolunu Azərbaycan ordusunun birliyində, gücündə, iradə möhkəmliyində görür və ümid edirlər ki, bu xilaskar ordunun köməyi ilə onlar azadlığa çıxacaq və evlərinə qayıda biləcəklər[132]. Beləliklə qəzada düşmən qüvvələrinin törətdikləri qırğınlara 1919-cu ilin yayında Azərbaycan Ordusunun səyi nəticəsində son quyuldu.

Üçüncü paraqrafda **"Azərbaycan Xalq Cümhuriyyəti dövründə regionda ictimai-siyasi vəziyyət"** dövrü mənbələr və ədəbiyyatlar əsasında tədqiq edilmişdir. 1918-ci il iyulun axırlarında Bakı sovetinin süqutundan sonra, avqustun 1-də Bakıda "Sentrokaspi və sovetin icraiyyə komitəsinin müvəqqəti rəyasət heyyəti diktaturası" adlanan bir hökumət qurulduqdan sonra qəzada İlyaşeviçin komandanlıq etdiyi 600 nəfərdən ibarət dəstəsi Prişivdə möhkəmlənərək qəza işlərinə müdaxilə etməyə başladı.

Qəzasında baş verən qırğınlardan, talanlardan təngə gələn yerli müsəlman əhali Hüseyn Ramazanovun, İbrahim, Hacı Osman və Şahverənin rəhbərliyi ilə 1919-ci ilin ortalarında Azərbaycanın ərazi bütövlüyü uğunda silah sarılaraq işğalçılara qarşı mübarizəyə başladılar[133]. Regionda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi

---

[131] Добрынин, В.А. Оборона Мугани. – с. 25, 27.

[132] Т.Б. Ленкорань (от нашего корреспондента) // Азербайджан. – 1918, 15 (2) ноября. – с. 3.

[133] Mirzə Bala. Cemal Paşa. - s. 275.

məqsədilə inadlı mübarizə aparan müsəlman qüvvələrinə kömək məqsədilə milli hökumət iyun ayının axırlarında C.Məlikyeqanovun rəhbərliyi ilə Astaraya göndərdiyi silahlı dəstələr Hüseyn Ramazanovla birlikdə hərəkət etməyə başladı[134]. İyulun 6-da Kələdəhnə və Pusədahnə yaxınlığında baş vermiş döyüş bolşeviklər məğlubiyyət uğrayaraq geri çəkildilər[135].

1919-cu il avqustun 4-də qərargah rəisi general-mayor Həbib bəy Səlimovun komandanlığı ilə hərbi hissələr Hacıqabul, Salyan, Pokrovka, Prişib və Lənkəran marşrutu ilə cənub-şərq regiona doğru irəliləməklə, orada qayda-qanunu və sakitliyi bərqərar etməli idi. Lənkəran istiqamətində Azərbaycan ordusunun inadlı hücumunu qələmə alan müəllif yazırdı ki, "əgər muğan rusları öz fikirlərindən əl çəkməsələr, hücumu dayandırmaq mümkün olmayacaq"[136]. Lənkəran şəhəri ətrafında cəmləşmiş 6000 nəfərə yaxın silahlı dəstə Azərbaycan hökumətinin əmrini gözləyirdi[137].

Azərbaycan ordu hissələri və yerli müsəlman dəstələri avqustun 12-də Lənkəran daxil olaraq şəhəri ağqvardiyaçılardan təmizləyərək tərk-silah etməyə başladılar. Avqustun 15-ə kimi Lənkəran şəhərini və ətraf əraziləri tam şəkildə nəzarətə alılmış[138], bolşevik-daşnak və denikinçi qüvvələrin ağalığına son qoyuldu. General-mayor H.Səlimov komandanlığı ilə xilaskar ordumuz avqustun 23-də Lənkəranda böyük təntənə ilə qarşılandı[139].

Azərbaycan Xalq Cümhuriyyətinin ərzaq müfəttişliyi 1919-cu ilin sentyabrından başlayıb regionda imkansız əhaliyə ərzaq yardımı etmiş, yandırılmış və dağıdılmış kəndlər yenidən bərpa edilmişdir[140].

---

[134]Süleymanov, M. Azərbaycan ordusu (1918-1920). – s. 345.

[135]Астаринец. Азербайджанская Астара // Азербайджан. – 1919, 12 июля. – с. 4.

[136] Салман-бек. Ленкорань (от нашего спец. корреспондента) // – Азербайджана. – 1919, 13 августа. – с. 2.

[137] В Ленкорани // – Азербайджана. – 1919, 8 августа. – с. 2.

[138] Ленкорань (от нашего корреспондента) // Азербайджан. – 1919, 30 августа. – с. 4.

[139]Теймурбек. Ленкорань (от нашего специальн. корреспондента) // Азербайджан. – 1919, 3 сентября. – с. 6.

[140] История Азербаиджана по документам и публикациям / Под редакцией академика З. М. Буниятова. - Баку: Элм, - 1990. - с. 173-174; Адрес-Календарь Азербайджанской Республики на 1920-й г. - с. 257.

Lakin 1920-ci illərin əvvəllərində qəzada bolşeviklərin fəalığı nəzərə çarpaz dərəcədə artmağa başlamışdır. Azərbaycan hökumətinin qəza üzrə səlahiyyətli nümayəndəsi B.Naxçıvanski qəzada bolşevik təşviqatına qarşı tədbirlərin görülməsi haqqında 1920-ci il martın 6-da daxili işlər nazirliyinə göndərdiyi teleqramda Muğan rus kəndlərində bolşevik hərəkatını dəstəkləmək məqsədilə əhalini silahlandırdığını bildirmişdir[141]. 1920-ci il aprel çevrilişindən sonra Milli qüvvələrin müqavimətinə baxmayaraq Lənkəran bolşeviklərdən ibarət hərbi inqilab komitəsi təşkil etdilmişdir.

Lakin qəzada yeni yaradılan bolşevik hökümıəti ilə barışmayan milli qüvvələr qarşı onlara qarşı ciddi müqavimətə başladılar. 1920-ci ilin mayından Lənkəran qəzasında sovetlərə qarşı başlanan və getdikcə qüvvətlənən mübarizə tam bir il 1921-ci ilin mayına kimi davam etmişdi.

Dördüncü paraqrafda Azərbaycan Xalq Cümhuriyyəti dövründə regionun **"Mədəni quruculuq"** məsələləri işıqlandırılmışdır. Fevral inqilabına qədər çar məmurlarının "yad" adlandırdıqları qeyri-rus xalqlarının demək olar ki, hamısı təhsil almaq imkanı olmamışdı.

Lakin 1917-ci il fevral inqlabından sonra bu sahədə ciddi tədbirlər həyata keçirilmişdir. Qəzada yeni təhsil islahatının həyata keçirmək məqsədilə 1917-ci il aprelin 7-8-də "Lənkəran ümumqəza peşəkar müəllimlər ittifaqı" üzvlərinin ümumi yığıncağında məktəblərdə şagirdlərin sayına görə otaqların artırılması, dövlət tərəfindən ana dilində tədris edən müəllimlərə əlavə əmək haqqının verilməsi, 7 yaşından başlayaraq ana dili və dövlət dili üçün məcburi pulsuz təhsil tətbiq etmək və s. haqqında qərar qəbul edilmişdi[142]. 1917-ci il sentyabrın 30-da Lənkəranda fəaliyyətə başlayan "Ümud" cəmiyyətinin nəzdində türk və rus dilləri kürslar açılmışdır[143].

---

141 Əlizadə, N. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən. - s. 106.

142 Нам пишут: Из Ленкорани. Общеуездный учительский съезд // Каспий. - 1917, 28 апреля (11 мая). – 3 с.

143 Общества «Умид»: Господину директор народных училищ Бакинской-Дагестанской области 1-го района (Ленкоран: 1917, 31 сентября) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 309, siyahı № 1, iş № 1250, vərəq – 22.

1918-1919-cu ilin yayına qədər regionda baş verən qırğınlar nəticəsində mövcud olan 54 məktəbin 8 bağlanmış, o cümlədən 6 məktəbi dağıdılmışdı[144].

Qəzada Azərbaycan Xalq Cümhuriyyəti bərqərar edildikdən sonra məktəb şəbəkəsi yenidən inkişaf etməyə başlamışdır. Lənkəranda M.Bayraməlibəyova və Zeynəb Müzəffərovanın rəhbərliyi ilə fəaliyyət göstərən türk müsəlman qadın məktəbləri[145] regionda qadın ziyalılarının yetişməsinidə xüsusi xidmətləri olmuşdur. M.Bayraməlibəyova Lənkəran müsəlman qız məktəbində dərs deməklə yanaşı, qəzada ilk qadın Xeyriyyə cəmiyyəti yaratmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində dissertasiyanın gedişində əldə olunan əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilmişdir. Rəsmi sənədlərin təhlilindən göstərir ki, çarizm regionda hakimiyyətini möhkəmləndirmək məqsədilə - güclü inzibati idarəetmə sisteminin təşkilinə; yerli əhalinin təmsil etdiyi hakimiyyət orqanlarında sosial dəstəyin yaradılmasına; regionda etno-demoqrafik vəziyyətin dəyişməsinə çalışırdı.

Regionun milli tərkibini nəzərə almayan çarizm yerli əhalini təsir altında saxlamaqla çarizm şəhər özünüidarəsinə keçirilən seçkiləri formal, bilərəkdən ziddiyyətli və pərakəndə halda həyata keçirir və istədiyi namizədi təyin edirdi.

Çarizm regionda özünə dayaq yaratmaq məqsədilə xristian əhalisini regionda yerləşdirməklə həyata keçirdiyi ayrı-seçkilik siyasəti nəticəsində regionda yerli kəndlilərin öz torpaqlardan qovulması ciddi etirazlara səbəb olmuşdur.

Regionda baş verən narazılığın qarşısını almaq məqsədilə qəbul edilmiş qanunlar da vəziyyətini yaxşılaşdıra bilmədi. Bu narazılıqlar kəndli üsyanlarının başlanmasına gətirib çıxartdı.

I Dünya müharibəsi dövründə regionda acınacaqlı vəziyyətinə məhəl qoymayan çarizm müharibə ilə əlaqədar yaradılmış xeyriyyə

---

[144] Рапорт инспектору народных училищ Ленкорансого уездов (Ленкоран: 1919, 14 марта) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 51, siyahı №1, iş № 16, vərəq – v. 5.

[145] Ведомость на жалованье учащим начальных училищ Ленкоранском уезда (1920, 17 января) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 53, siyahı №1, iş № 29, vərəq – 1-2.

cəmiyyətləri vasitəsilə xalqı talayırdılar. Mövcud vəziyyət qəzada kəndli üsyanlarının baş verməsinə gətirib çıxartdı.

XX əsrin əvvəllərində ölkənin əsas taxıl anbarı kimi aparıcı mövqeyə malik olması kənd təsərrüfatın inkişafından xəbər verirdi. Regionda çəltikçilik, taxılçılıq, bostançılıq, maldarlıq və digər kənd təsərrüfatının inkişafı qəzanın iqtisadi gücünü daha da artırmışdır.

Regionda maldarlıq təsərrüfatı əhalinin iqtisadi həyatında xüsusi mövqeyə malik olmuşdur. Ticarət maldarlığının inkişafı nəticəsində region Bakı quberniyasının əsas satışı məntəqələrindən birinə çevrilmişdir. Qəzasında maldarlığın aparıcı bir sahə olması yun, xalça və xalça məmulatları istehsalına böyük təsir göstərmişdir.

Digər təsərrüfat sahələri ilə yanaşı "balıq evi" adlanan region balıq məhsullarının istehsalına görə Cənubi Qafqazda aparıcı mövqeyə malik olmuşdur.

Çarizmin regionda nəqliyyat və rabitə istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində qismə də olsa, yeni yollar salınması poçt və rabitə xidmətinin təşkilini, daxili bazarın inkişafını müəyyən təsir göstərmişdir.

Yerli ziyalıların səyi nəticəsində regionda yaranan yeni məktəblər, klublar, qiraətxana şəbəkələri maarifin inkişafına böyük təsir göstərmiş və elm, ədəbi mühit, teatr, musiqi sənətinin inkişafında müəyyən nailiyyətlər əldə edilmişdir.

1917-ci il fevral inqilabından sonra regionda qısa müddətə hakimiyyəti ələ alan müsəlman milli komitəsi yerli müsəlman əhalisinin təşkilatlanmasında və qəzada yerləşən Müsəlman süvari divizionunun maddi-texniki baza ilə təmin edilməsində fəal mübarizə aparmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin qəzada bərqərar olmasına qədər, keçən iki ilə yaxın bir müddət ərzində – 1919-cu ilin avqust ayına qədər Lənkəran qəzasının müsəlman əhali malakan, bolşevik-erməni dəstələrinin, rus millətçilərinin qırğınlarına məruz qalmışdır.

Regionunda ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizə Milli ordunun və yerli müsəlman dəstələrinin səyi nəticəsində Azərbaycan hakimiyyətinin qəzada bərqərar olması ilə, yerli əhali qırğınlardan, talanlardan xilas olmuşdur.

1920-ci ilin əvvəllərində regionda fəallaşması ilə milli hökumətə qarşı itaətsizlik kompaniyasına başlayan bolşeviklər rus kəndliləri

arasında təbliğatı genişləndirərək onları hökumətə qarşı qiyama yazırlamağa başladılar. Aprelin 28-də Bakıda olduğu kimi Lənkəranda da hakimiyyət sovetlərin əlinə keçdi.

1920-ci il aprel çevrişindən sonra regionda yerli müsəlman əhalinin sovet hakimiyyətinə qarşı başlanan mübarizə tam bir il – 1921-ci ilin may ayına kimi davam etmişdir. Yerli əhalinin ciddi müqavimətinə baxmayaraq, üsyan məğlubiyyətə uğradı.

Regionda, Azərbaycan Xalq Cümhuriyyəti bərqərar olması nəticəsində məktəb şəbəkəsi yenidən bərpa edilmiş, təhsil və mədəniyyətinin inkişafı nəticəsində yeni kişi və qadın məktəbləri, o cümlədən pedaqoji muzey yaradılmışdır.

Bütün yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində regionun siyasi, iqtisadi və mədəni cəhətdən inkişafı, mövcud sosial proseslərin gedişini və xarakterini, problemləri müəyyən etməyə, onların həlli istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyini qiymətləndirməyə imkan verir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. XX əsrin əvvəllərində Lənkəranda müsəlman qız məktəbinin təşkili tarixindən // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2011. №3, – s. 103-108.
2. Görkəmli maarifçi Teymur bəy Bayraməlibəyov // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2011. – 2011, – s. 45-54.
3. Görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov ocağının davamçıları // – Bakı: Üç əsrin qəzeti, – 2011. – s. 218-233.
4. Milli Azərbaycan Tarixi Muzeyinin fondunda Talışxanovlara dair materiallar // – Bakı: AMEA İntellektual İnkişaf Mərkəzi. Gənc Alimlərin Əsərləri, – 2012. № 5, – s. 209-216.
5. 1918-1920-ci illrdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2012. №2, – s. 151-160.
6. XX əsrin əvvəllərində Lənkəran qəzasında sənayenin, ticarətin inkişafı və kənd təsərrüfatın yüksəlişi // Gənc Alimlərin Elmi

Konfransının Materialları ("Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası" çərçivəsində), – Bakı: 25-27 iyul, 2012. – s. 233-236.
7. Peterburq Universitetinin Şərq fakültəsini bitirən ilk azərbaycanlı tələbələr (MATM materialları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2012. – s.100-107.
8. Религиозная политика царской России на Южной Кавказе (Закавказье) в XIX-начале XX вв. // – Махачкала: Исламская цивилизация и современный мир. Международная научно-практическая конференция. г. Махачкала, 13-14 октября, 2011 г. Махачкала, Издательство ДГУ, – 2012. – с. 143-145.
9. Talışinskilər nəslinin iki generalı haqqında (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // – Bakı: "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" II Respublika Elmi Konfransının materialları (Bakı – 18.06.2012). – s. 106-113
10. XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Lənkəran qəzasında maarif işi // – Bakı: XIX əsr-XX əsrin birinci yarısı Azərbaycan maarifçiliyi və maarifçiləri: Məqalələr toplusu, – 2013. – s. 57-67.
11. XX əsrin əvvəllərində Lənkəran qəzasında kəndli çıxışları (1900-1913-cü illərdə) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi - 2013. – 2013. – s. 149-157.
12. XX əsrin əvvəllərində Lənkəran qəzasında aqrar münasibətlər // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, - 2013. № 4, – s. 71- 80.
13. XX əsrin əvvəllərində Lənkəran qəzasının əkinçilik təsərrüfatı (1900-1913-cü illərdə) // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2014. № 3, – s. 88-95.
14. XX əsrin əvvəllərində Lənkəran qəzasında ticarətin inkişafına dair // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 1, – s. 78-86.
15. Lənkəran qəzasında ermənilərin törədikləri soyqırım // AMEA Tarix İnstitutu. Elmi Əsərləri. Xüsusi buraxılış. "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları

(1914-1920)” mövzusuna həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları. – 2015. № 52, 53, 54, 55, – s. 132-137.
16. XX əsrin əvvəllərində Lənkəran qəzasının kənd təsərrüfatı // Gəncə Dövlət Universiteti. “Qafqaz tarixinin aktual məsələləri” Beynəlxalq Konfransın materialları, – [II hissə] – Gəncə: 15-16 oktyabr 2015. – s. 20-23.
17. Lənkəran qəzasında Rus yaşayış məskənlərinin təşkili tarixindən // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 4, – s. 51-62.
18. Lənkəran qəzası Birinci Dünya Müharibəsi illərində // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2015. № 2, – s. 66-75.
19. Lənkəran qəzasında maldarlıq təsərrüfatının inkişafı (1900-1914-cü illərdə) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, 2016. № 3, - s. 54-60.
20. Lənkəran qəzasında çarizmin torpaq və vergi siyasəti (XX əsrin əvvəllərində) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2016. № 4, – s. 55-66.
21. XX əsrin əvvəllərində Lənkəran qəzasında suvarma və sudan istifadə // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2016. 2016. - s. 207-219.
22. Социально-экономическое положение Ленкоранского уезда в начале XX века // – Ростов-на-Дону: Северо-Кавказский Юридический Вестник, – 2017, № 2, – с. 34-44.
23. Административная система управления Ленкоранского уезда в XIX – начале XX в. // – Москва: Вопросы истории, – 2017, том 12, – с. 149-154.
24. Azərbaycan travmatologiya elminin banisi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2017. – 2017. – s. 24-30.
25. Lənkəran qəzasında balıqçılıq sənayesinin inkişafı tarixindən // - Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2017. c. 65, № 4, – s. 165-175.

26. Lənkəran qəzasında Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda mübarizə // – Bakı: “XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları” mövzusuna həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları, AMEA Tarix İnstitutu. Elmi Əsərləri. Xüsusi buraxılış, – 2018. № 70, 71, 72, – s. 282-288.
27. Российское общество Красного Креста и организация помощи пострадавшим от войны в Ленкоранском уезде в 1914–1916 гг. // – Москва: Российская история, Журнал Российская Академия Наук, – 2018, № 3, – с. 190-195.
28. “Talışinskilərin ailə arxivi” Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2018. - 2018. s. 13-22.
29. Fevral inqilabından sonra Lənkəran qəzasında ictimai-siyasi vəziyyət (fevral 1917-ci il - may 1918-ci il) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, Beynəlxalq jurnal, – 2019. il 8, Say 3, – s. 118-135.
30. Teymur bəy Bayraməlibəyovun məqalələrində qadın təhsili mövzusu // Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları, – Bakı: 2-3 oktyabr, – 2019, – s. 345-351.
31. Görəmli maarifçi Məryəm Bayraməlibəyova-Məlikyeqanova (MATM-də saxlanılan əlyazmaları və məkubları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2019, – 2019. – s. 175-186.
32. Şimalı azərbaycanın cənub-şərq regionunda 1918-1919-cu illərdə ermənilərin törətdiyi soyqırımlar // XX əsrdə Türk-Müsəlman soyqırımları, Bakının Qafqaz İslam Ordusu tərəfindən qurtuluşundan Qarabağ zəfərinə doğru Azərbaycan-Türkiyə münasibətləri. Bakının erməni-daşnak, bolşevik işğalından azad olunmasının 103 illiyinə həsr olunmuş II Beynəlxalq Quba Simpoziumu Materialları. – Quba: Quba şəhərində “Soyqrımı Memorial Kompleksi”, “AVROPA” nəşriyyatı, – 2021. – s. 214-220.

33. XX əsrin əvvəllərində Lənkəran şəhərində ictimai-siyasi vəziyyət // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi - 2021, – 2021, – s. 59-70.
34. 20. Yüzyilin başlarinda Azerbaycan'in Lenkeran bölgesinde milli eğitim / – Istanbul International Modern Scientific Research Congress - II. December 23-25, 2021, Istanbul, Turkey. Dbstract Book. Organization Iksad Iksad publishing house, – s. 447-448.
35. 20. Yüzyilin başlarinda Azerbaycan'in Lenkeran bölgesinde milli eğitim // – Istanbul International Modern Scientific Research Congress - II. December 23-25, 2021, Istanbul, Turkey. Full Texts Book (I). Organization Iksad Iksad publishing house. – 2021, – s. 995-1000.
36. Azərbaycan Xalq Cümhuriyyətinin cənub ərazilərinin bütövlüyü uğrunda mübarizəsi // – Gəncə: Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsi Xəbərlər Məcmuəsi "İctimai və humanitar elmlər" – 2022. № 1 (1), – s. 66-74.
37. Право в Ленкоранском уезде // Право и информация: вопросы теории и практики: Материалы IV Международной научно-практической конференции (посвященной 300-летию Российской империи и 30-летию образования Российской Федерации): – Пятигорск, 21 января 2022 г. – Пятигорск: ФГБОУ ВО «Пятигорский государственный университет», – 2022. – с. 57-61.
38. Общественно-политическое положение в Ленкоранском уезде после февральской буржуазно-демократической революции // Актуальные проблемы социогуманитарных наук в современном мире. – Кизляр: Материалы международной научно-практической конференции. – 2022. – с. 117-121.
39. XIX-XX əsrin əvvəllərində Azərbaycanda təhsil / Kataloq: (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında). – Bakı: "OPTİMİST" MMC çap mərkəzi, – 2023. – 200 s.
40. Azərbaycanda balıqçılıq sənayesi / Kitab-albom: (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). – Bakı: Aspoliqraf, – 2023. – 128 s.

41. Отрасли кустарной промышленности в Ленкоранском уезде в начале XX века // – Москва: Истории, экономики и права. Современная научная мысль. – 2023. НИИ ИЭП. № 5, – с. 40-47.
42. Azerbaycan Halk Cumhuriyeti'nin Toprak Bütünlüğü Uğrunda Mücadelesi // VAKANÜVİS - Uluslararası Tarih Araştırmaları Dergisi/ International Journal of Historical Researches, Yıl/Vol. 9, Sayı/No. 1, Bahar/Spring – 2024. – s. 438-469.

Dissertasiyanın müdafiəsi 23 yanvar 2025-ci il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.12.2024
Kağızın formatı: A5
Həcm: 93 522 işarə
Tiraj: 100